AZƏRBAYCAN RESPUBLİKASI

DÖVLƏT TORPAQ VƏ XƏRİTƏÇƏKMƏ KOMİTƏSİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ TARİX İNSTİTUTU

# AZƏRBAYCAN TARİXİ ATLASI

BAKI KARTOQRAFİYA FABRİKİ

BAKI 2007

PREZİDENT KİTABXANASI

Azərbaycan Tarixi Atlası ölkəmizin tarixini öyrənənlər
üçün kartoqrafik vəsait kimi nəzərdə tutulmuşdur

Atlasın xüsusi məzmunu Azərbaycan Milli Elmlər Akademiyasının
müxbir üzvü Tarix İnstitutunun direktoru
prof. Y.M. Mahmudovun
rəhbərliyi və redaktəsi ilə işlənilmişdir

**Elmi redaksiya heyəti:**

Y.M. Mahmudov, Q.Ş.Məmmədov, C.Ə.Bəhrəmov,
O.Ə. Əfəndiyev, N.M. Vəlixanlı, V.Z. Piriyev, T.T. Mustafazadə,
H.N. Həsənov, A.Ə. Məmmədov, T.H. Nəcəfli, G.N. Məmmədova,
M.N. Mirzəyev, N.Ə. Maksvell, İ.S.Məmmədov, E.Ə. Məhərrəmov

**Məsul redaktor:** Ə.M. Qasımov

**Redaktor:** İ.V. Konovalova

BKF Azərbaycan Respublikası Dövlət Torpaq və
Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya
Fabrikində hazırlanmış və çap olunmuşdur
Tirajı 10 000 nüsxə Sifariş №8

Qiyməti - müqavilə ilə
Bakı, Atatürk prosp., 70
Tel.: 562-88-21, 561-90-04

© Bakı Kartoqrafiya Fabriki 2007-ci il

# ATLASIN XÜSUSİ MƏZMUNUNUN MÜƏLLİFLƏRİ:

"DAŞ VƏ ENOLİT DÖVRÜ ABİDƏLƏRİ", "TUNC DÖVRÜ ABİDƏLƏRİ"— tarix e.n. F.R.Mahmudov, tarix e.n. Q.O. Qoşqarlı, tarix e.n. N.Ə. Müseyibli

"ÖN ASİYADA QƏDİM TAYFALAR, TAYFA BİRLİKLƏRİ VƏ DÖVLƏTLƏR (e.ə.IV-II minilliklər)", "MANNA DÖVLƏTİ (e.ə.IX-VII əsrlər)" — tarix e.n. S.M. Qaşqay

"MADA (MİDİYA) ŞAHLIĞı (e.ə. VII əsrin ikinci yarısı — e.ə. VI əsrin ortaları)", "AZƏRBAYCAN ƏRAZİSİ (e.ə.VI-IV əsrlər)" — R.S. Məlikov

"AZƏRBAYCAN (e.ə.IV-III əsrlər)" — tarix e.n. K.H. Əliyev

"AZƏRBAYCAN (IV-VII əsrlər)" — tarix e.n. S.Y. Qasımova

"AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİ DÖVRÜNDƏ (VII əsrin II yarısı-IX əsrin I yarısı)", "XÜRRƏMİLƏR HƏRƏKATI (VIII əsrin sonu-IX əsrin I yarısı)", "AZƏRBAYCAN ( IX əsrin II yarısı-X əsr)", "AZƏRBAYCAN (X əsrin sonu-XI əsrin I yarısı)" — tarix e.d., akademik N.M.Vəlixanlı

"AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ (1136-1225-ci illər)"—akad. Z.M.Bünyadov

"AZƏRBAYCAN (XIII-XIV əsrlər)", "NAXÇIVAN (XIII-XIV əsrlər)", "QARABAĞ (XIII-XIV əsrlər)"— tarix e.d., prof. V.Z. Piriyev

"AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİ (1410-1468-ci illər)", "AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİ (1468-1501-ci illər)", "AZƏRBAYCAN (XV əsr)", "AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (Şah İsmayıl dövrü, 1501-1524-cü illər)", "AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (Şah Təhmasib dövrü, 1524-1576-cı illər)", "AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (Şah Məhəmməd Xudabəndə dövrü, 1578-1587-ci illər)", "AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ" ( I Şah Abbas və sələfləri dövrü, 1587-1736-cı illər) — tarix e.d., AMEA-nın müxbir üzvü O.Ə. Əfəndiyev, tarix e.n. T.H. Nəcəfli

"NADİR ŞAH ƏFŞARIN İMPERİYASI (1736-1747-ci illər)" — tarix e.d. T.T. Mustafazadə

"AZƏRBAYCAN XANLIQLARI (XVIII əsrin II yarısı)", "QUBA XANLIĞI (XVIII əsrin II yarısı)", "İRƏVAN XANLIĞI (XVIII əsrin II yarısı)", "QARABAĞ XANLIĞI (XVIII əsrin II yarısı)", "AZƏRBAYCANIN ŞİMAL - QƏRB XANLIQ və SULTANLIQLARI (XVIII əsrin II yarısı) " — tarix e.d. T.T. Mustafazadə

"ŞİMALİ AZƏRBAYCANIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALININ BAŞLANMASI (1801-1813-cü illər)", "ŞİMALİ AZƏRBAYCANIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALININ BAŞA ÇATDIRILMASI (1826-1828-ci illər)", "ŞİMALİ AZƏRBAYCANDA RUSİYA İMPERİYASINA QARŞI XALQ AZADLIQ HƏRƏKATI ", "ŞİMALİ AZƏRBAYCANIN İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri)", "BORÇALI QƏZASI (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri), "İRƏVAN QUBERNİYASI (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri)", "YELİZAVETPOL QUBERNİYASI (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri)", "BAKI QUBERNİYASI (XIX əsrin II yarısı-XX əsrin əvvəlləri)" — tarix e.n. H.N. Həsənov

"AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər)" — tarix e.n. N.Ə. Maksvell, R.H. Rüstəmov

"AZƏRBAYCAN SSR (1920-1922-ci illər)", "AZƏRBAYCAN SSR (1923-1929-cu illər)", "AZƏRBAYCAN SSR (1930-1991-ci illər)" — tarix e.d. prof. A.Ə. Məmmədov

# MÜNDƏRİCAT


| Səhifə | Xəritənin adı |
|---|---|
| 6 | Mündəricat |
| 7 | Şərti işarələr |
| 8 | Daş və Eneolit dövrü abidələri |
| 9 | Tunc dövrü abidələri |
| 10 | Ön Asiyada qədim tayfalar, tayfa birlikləri və dövlətlər (e.ə.IV-II minilliklər) |
| 11 | Manna dövləti (e.ə.IX-VII əsrlər) |
| 12 | Mada (Midiya) şahlığı (e.ə.VII əsrin ikinci yarısı - e.ə.VI əsrin ortaları) |
| 13 | Azərbaycan ərazisi (e.ə.VI-IV əsrlər) |
| 14 | Azərbaycan (e.ə.IV-III əsrlər) |
| 15 | Azərbaycan (IV-VII əsrlər) |
| 16 | Azərbaycan Ərəb Xilafəti dövründə (VII əsrin II yarısı - IX əsrin I yarısı) |
| 17 | Xürrəmilər hərəkatı (VIII əsrin sonu - IX əsrin I yarısı) |
| 18 | Azərbaycan (IX əsrin II yarısı - X əsr) |
| 19 | Azərbaycan (X əsrin sonu - XI əsrin I yarısı) |
| 20 | Azərbaycan Atabəylər (Eldənizlər) dövləti (1136-1225-ci illər) |
| 21 | Azərbaycan (XIII-XIV əsrlər) |
| 22 | Naxçıvan (XIII-XIV əsrlər) |
| 23 | Qarabağ (XIII-XIV əsrlər) |
| 24 | Azərbaycan Qaraqoyunlu dövləti (1410-1468-ci illər) |
| 25 | Azərbaycan Ağqoyunlu dövləti (1468-1501-ci illər) |
| 26 | Azərbaycan (XV əsr) |
| 27 | Azərbaycan Səfəvi dövləti (Şah İsmayıl dövrü,1501-1524-cü illər) |
| 28 | Azərbaycan Səfəvi dövləti (Şah Təhmasib dövrü,1524-1576-cı illər) |
| 29 | Azərbaycan Səfəvi dövləti (Şah Məhəmməd Xudabəndə dövrü,1578-1587-ci illər) |
| 30 | Azərbaycan Səfəvi dövləti ( I Şah Abbas və sələfləri dövrü,1587-1736-cı illər ) |
| 31 | Nadir Şah Əfşarın imperiyası (1736-1747-ci illər) |
| 32 | Azərbaycan xanlıqları (XVIII əsrin II yarısı) |
| 33 | Quba xanlığı (XVIII əsrin II yarısı) |
| 34 | İrəvan xanlığı (XVIII əsrin II yarısı) |
| 35 | Qarabağ xanlığı (XVIII əsrin II yarısı) |
| 36 | Azərbaycanın şimal -qərb xanlıq və sultanlıqları (XVIII əsrin II yarısı) |
| 37 | Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalının başlanması (1801-1813-cü illər) |
| 38 | Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalının başa çatdırılması (1826-1828-ci illər) |
| 39 | Şimali Azərbaycanda Rusiya imperiyasına qarşı xalq azadlıq hərəkatı |
| 40 | Şimali Azərbaycanın inzibati-ərazi bölgüsü (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri) |
| 41 | Borçalı qəzası (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri) |
| 42 | İrəvan quberniyası (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri) |
| 43 | Yelizavetpol quberniyası (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri) |
| 44 | Bakı quberniyası (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri) |
| 45 | Azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımlar (1918-1920-ci illər) |
| 46 | Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər) |
| 47 | Azərbaycana qarşı xarici-hərbi müdaxilə. Azərbaycan SSR-in yaradılması |
| 48 | Azərbaycan SSR (1920-1922-ci illər) |
| 49 | Azərbaycan SSR (1923-1929-cu illər) |
| 50 | Azərbaycan SSR (1930-1991-ci illər) |
| 51 | Yuxarı Qarabağ |
| 52 | Azərbaycana qarşı erməni təcavüzünün nəticələri (1948-1953, 1988-1993-cü illər) |
| 53 | Azərbaycan Respublikası (1991-2007-ci illər) |
| 54 | Azərbaycan Respublikası bu gün |
| 55 | Memarlıq abidələri |

# ŞƏRTİ İŞARƏLƏR

## Tarixi xəritələr üçün

- AŞŞUR — Dövlətlər
- SAKASENA — Əyalətlər, vilayət və mahalların adları
- KUTİLƏR — Tayfalar və tayfa birlikləri, xalqlar
- Paytaxtlar. Quberniya mərkəzləri
- Vilayət, əyalət, tümənlərin, qəza və dairə mərkəzləri
- Digər yaşayış məntəqələri
- Əlincə — Qalalar
- Dəmir yolları
- Yollar
- Dövlətlərin sərhədləri
- Əyalət, vilayət, mahal və tümənlərin sərhədləri
- Rayonların sərhədləri
- Azərbaycan ərazisinin coğrafi sərhədləri
- ARRAN — Coğrafi ərazi adları
- Çaldıran 1514 — Mühüm döyüş yerləri və illəri
- Məscid
- Gəmiçilik
- Əlvan metallurgiya
- Kömür sənayesi
- Neft sənayesi
- Neft emalı müəssisəsi
- Mədən sənayesi müəssisələri
- Pambıqçılıq
- Xam ipək istehsalı
- Şərabçılıq
- Duz çıxarma
- Balıqçılıq
- Xalçaçılıq
- Teatrlar

# ŞƏRTİ İŞARƏLƏR

## 1930-2007-ci illəri əhatə edən xəritələr üçün

- BAKI — Paytaxtlar
- Astara — Rayonların mərkəzləri
- SUMQAYIT — İri şəhərlər

### SƏNAYE

- Əlvan metallurgiya Mədənçıxarma sənayesi
- Kömür sənayesi
- Maşınqayırma
- Neft
- Neft-kimya sənayesi
- Qaz
- Elektroenergetika
- Yüngül sənaye
- Yeyinti sənayesi
- Mineral bulaqlar
- Şərabçılıq
- Balıqçılıq
- İpəkçilik
- Konservləşdirilmiş meyvə Konservləşdirilmiş tərəvəz
- Zeytun
- Taxılçılıq
- Pambıqçılıq
- Tütünçülük
- Çoxsahəli mədəni bitkilər
- Subtropik bitkilər
- Tərəvəzçilik
- Meyvəçilik
- Qoyunçuluq
- Quşçuluq
- Turizm

### EMAL SƏNAYESİ

- Qara metallurgiya
- Əlvan metallurgiya
- Maşınqayırma və metal emalı
- Elektrotexnika
- Neft emalı
- Kimya
- Sintetik kauçuk və rezin məmulatları istehsalı
- Meşə və ağac emalı
- İnşaat materialları istehsalı
- Yüngül
- Pambıq təmizləmə
- İpək
- Yeyinti
- Şərabçılıq
- Meyvə-tərəvəz konservləri
- Çay
- Tütün
- Balıq və balıq konservləri
- Mineral suların doldurulması

- Neft kəmərləri
- Qaz kəmərləri
- Dəniz limanı
- Aeroportlar

# DAŞ VƏ ENEOLİT DÖVRÜ ABİDƏLƏRİ




Dövrlər üzrə qədim mədəniyyətin meydana gəldiyi ərazilər

- Paleolit
- Mezeolit
- Neolit və Eneolit
- Mağaralar (düşərgələr)
- Qədim qəbirlər
- Qayaüstü tesvirlər
- Yaşayış yerləri
- Tarixi qoruqlar
- Abidələrin yerləşdiyi ərazilər

*Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar, burada hələ qədim Daş dövründən insanların yaşadıqlarını sübut edir.*

*O dövrdə insanlar çay vadisi və düzənliklərdə qrup halında yaşayırdılar. Onlar ağacların meyvəsini toplayır, heyvan ovlayır və balıq tuturdular.*

*Dünyada ibtidai insanların ilk yaşayış məskənlərindən biri Azıx mağarasında aşkar edilmişdir. İbtidai insanların istifadə etdikləri əmək alətləri daşdan hazırlanırdı. Onlar oda sitayiş edir, onu müqəddəs sayırdılar. Azərbaycanın ilk sakinlərinin oda sitayiş etməsi maişət və mədəniyyətə böyük təsir göstərmişdir. Məhz buna görə Azərbaycan dünya tarixində Odlar diyarı kimi tanınır.*

# TUNC DÖVRÜ ABİDƏLƏRİ




ⓘ Yaşayış yerləri

Δ Mədən yerləri

Qayaüstü təsvirlər

Qədim qəbirlər, nekropollar

Abidələrin yerləşdiyi ərazilər

Mixi yazıların tapıldığı yerlər

*Bir neçə qəbilənin birləşməsi nəticəsində qəbilə icması yarandı. Onlar əmək fəaliyyətlərində və təsərrüfat işlərində metal alətlərdən istifadə etməyə başladılar. Gədəbəy, Daşkəsən və Qarabağın dağlıq ərazisində yaşayan qəbilələr mis filizindən istifadə edirdilər.*

*Qazıntılar nəticəsində qədim insan məskənlərində misdən hazırlanmış ox, biz, bəzək aşyaları, qırmızı və boz rəngdə cilalanmış qablar aşkar olunmuşdur. Sonralar misi tunc və dəmir əvəz etdi. Bunlardan əmək alətləri və silah hazırlayırdılar. Muğanın Uzuntəpə yaşayış yerində tapılmış dəmir tiyəli və tunc dəstəkli qılınc bunu sübut edir.*

*Qazax rayonunda və Mil düzündə Tunc dövrünə aid müxtəlif tapıntılar aşkar edilmişdir.*



Qobustan qayaüstü rəsmləri

# ÖN ASİYADA QƏDİM TAYFALAR, TAYFA BİRLİKLƏRİ VƏ DÖVLƏTLƏR (e.ə.IV—II minilliklər)




Qayaüstü relyef
( e. ə. III minilliyin sonu)



Kuti hökmdarının tunc heykeli ( e. ə. III minilliyin sonu). Midiya



*Yaxın Şərq ərazisində tarixdə məlum olan ən qədim xalqlardan biri olan Şumerlər IV minilliyin axırlarında mixi yazısını kəşf etmişlər. Sonralar həmin ərazilərə gəlmiş Samidilli tayfalar Mesopotamiyada Akkad dövlətini, daha sonralar isə Babil və Aşşur dövlətlərini yaratmışlar. Şumer-Akkad mixi yazısı Yaxın Şərqin başqa ölkələrinə də yayılmışdır. Mixi yazılı mənbələr və arxeoloji qazıntılar zamanı əldə edilmiş materiallar əsasında o dövrün siyasi və mədəni tarixi mümkün qədər dolğun şəkildə öyrənilmişdir. Tarixi inkişafın ayrı-ayrı dövrlərində Yaxın Şərq, xüsusilə Mesopotamiya tarixində hurrilər, kutilər, lullubilər və kaşşular da mühüm rol oynamışlar.*

## MANNA DÖVLƏTİ (e.ə. IX—VII əsrlər)




*Mixi yazılı mənbələrə görə e.ə. I minilliyin əvvəllərində Urmiya ətrafı ərazilərdə mövcud olan şəhər dövlətləri və tayfa birlikləri "Zamua ölkələri" adı altında Aşşur ölkəsinin işğalçılıq cəhdlərinə qarşı müqavimət göstərirdilər.*

*E.ə. IX əsrdən Manna dövləti Urmiya ətrafı əraziləri birləşdirərək, Ön Asiyanın qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Dövlət ayrı-ayrı vilayətlərə bölünürdü. Çar İranzu və onun sələfləri dövrü Manna dövləti üçün çiçəklənmə dövrü olmuşdur. Arxeoloji qazıntılar göstərir ki, Mannada sosial iqtisadi həyat, sənətkarlıq, incəsənət və mənəvi mədəniyyət yüksək inkişaf səviyyəsinə çatmışdır.*

*Mannadə qala. Relyef ( e.ə. VIII əsrin sonu)*



*Mannalı və midiyalı döyüşçülər. Relyef ( e.ə. VIII əsrin sonu)*



## MADA (MİDİYA) ŞAHLIĞI (e.ə.VII əsrin ikinci yarısı —e.ə.VI əsrin ortaları)




*Madalıların (midiyalıların) məskunlaşdığı vilayətin adı ilk dəfə e. ə. 835-ci ildə aşşur mənbələrində çəkilir.*

*E. ə. VIII əsrdə Madanın bir sıra əyalətləri aşşurlar tərəfindən istila edilib, Aşşur çarlığına birləşdirilmişdir. E. ə.VII əsrin 70-ci illərində Kaştaritinin rəhbərliyi ilə baş vermiş xalq üsyanı nəticəsində aşşurlar Mada vilayətlərindən qovulmuş və burada Mada şahlığı meydana gəlmişdir. Kaştariti isə Madanın ilk şahı olmuşdur. Onun yaratdığı hərbi ittifaqın mərkəzi qədim Azərbaycan ərazisində, müasir Həmədan şəhərinin yaxınlığında yerləşirdi. Sonralar burada Madanın paytaxtı –Aqbatana şəhəri salınmışdır. Lakin bir qədər sonra Yaxın Şərq ölkələrinin bir çoxunda, o cümlədən Madada skiflər öz ağalığını bərqərar etdilər.*

*Mada şahı Kiaksar (e.ə.625-585) hərbi islahat keçirdikdən sonra e. ə. 624-cü ildə Madada skiflərin hakimiyyətini devirdi. E. ə.612-ci ildə madalılar babillərlə ittifaqda Aşşur çarlığının paytaxtı Nineviya (Neynəva) şəhərini tutub, dağıtdılar. Aşşur çarlığının bir hissəsi Mada dövlətinin ərazisinə qatıldı və Mada şahlığı Ön Asiyanın böyük dövlətinə çevrildi.*

*Bundan sonra madalılar Kiaksarın başçılığı ilə Hirkaniya, Parfiya, Parsa, Elam, Manna, Urartu və Azərbaycan ərazisində yerləşən Skif şahlığına son qoydular. Madalıların Kiçik Asiyanın bir hissəsini tutması qüdrətli Lidiya dövlətilə müharibənin başlanmasına səbəb oldu. Bu savaş beş il (e.ə.590-585) davam etdi. Sülh müqaviləsinə görə Mada və Lidiya arasında sərhəd qədim Qalis (müasir Qızıl İrmaq) çayı boyunca müəyyənləşdirildi.*

*Madalılar tərəfindən Mannanın və Aşşur çarlığının işğalında onların müttəfiqləri kimi Cənubi Azərbaycan ərazisində yaşayan asaqartilər tayfası da yaxından iştirak edirdi. O zaman asaqartilər Cənubi Azərbaycan ərazisinin çox hissəsinə və keçmiş Aşşur çarlığının Arbela vilayətinə yayılmışdılar.*

*Mada şahı Astiaq (e. ə. 585-550) Babil çarlığı ilə müharibəyə başlayaraq Babilin Harran vilayətini işğal etdi. E. ə. 553-cü ildə Madadan asılı olan Parsa vilayətinin hökmdarı Kuruşun başçılığı ilə farslar üsyan etdilər və e.ə.550-ci ildə madalılar məğlubiyyətə uğradılar.*

*Madalıların təsərrüfatının əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Madanın Nisaya çöllərində qiymətli at cinsləri bəslənilirdi. Madanın ərazisi dəmir, qurğuşun, gümüş, əlvan və qiymətli daşlarla zəngin idi. Burada hətta neft hasil edilirdi. Madalı daşyonan ustaların əməyindən sonralar Haxamaniş şahları Suz şəhərində saray tikintisində istifadə etmişdilər. Yaxın Şərq ölkələrini Mərkəzi Asiya və Hindistanla birləşdirən ən mühüm ticarət yollarından biri Madanın ərazisindən keçirdi.*

*Mada dövlətinin başında şah dururdu və onun hakimiyyəti irsi idi. Dövlətin idarə olunmasında qəbilə əyanları və zərdüşt maqları (kahinlər) mühüm yer tuturdular. E. ə. VII əsrdə Madada zərdüştilik dünyada ilk dəfə rəsmi dövlət dini olmuşdur.*

## AZƏRBAYCAN ƏRAZİSİ (e.ə. VI—IV əsrlər)




Boyunbağı. Qızıl (Mingəçevir, e.ə. V - III əsrlər)




ƏHƏMƏNİLƏR DÖVLƏTİ
( e.ə. VI—IV əsrlər)

*Əhəmənilər dövləti e.ə. 550-330-cu illərdə mövcud olmuşdur. Həmin dövrdə Azərbaycanın ərazisi də bu dövlətdən asılı idi.*

*Azərbaycan tayfaları illik bacdan başqa müharibə zamanı Əhəməni ordusuna silahlı dəstələr də göndərməli idilər. Oxatan amardlar Əhəməni şahlarının demək olar ki, bütün yürüşlərində iştirak edirdilər. Madalılar, asaqartilər, kaspilər, amardlar, mantiyenlər, müklər, skiflər (saklar), utilər və digər tayfalar e. ə. 480-ci ildə Əhəməni şahı Kserksin Yunanıstana yürüşündə iştirak etmişdilər. E. ə. 331-ci ildə baş verən Qavqamela vuruşmasında Atropatın rəhbərlik etdiyi ordu hissəsinin tərkibində madalılara kadusilər, albanlar və sakesinlər də birləşmişdilər.*

# AZƏRBAYCAN (e. ə. IV— III əsrlər)




Bəzək sancağı. Tunc, qızıl
(Şamaxı rayonu, e.ə. I - b.e.I əsrlər)

*E.ə. IV—b.e.III əsrlərdə Atropatena Böyük Midiyadan qərbdə və şimalda yerləşirdi. Cənubda Atropatena Hirkan dənizi ilə Matiana arasındakı ərazini əhatə edirdi (Strabon IX cild, 13-cü fəsil, səh.2).*

*Strabonun məlumatına görə, albanlar (e.ə. I əsr - b.e.I əsr) iberlər ilə Kaspi dənizi arasındakı ərazidə yaşayırdılar. Albaniya ərazisi şimalda Qafqaz dağlarına çatırdı (Strabon, XI cild, 4-cü fəsil, səh.1). Kaspiana da Albaniya ərazisinə daxil idi (Strabon, XI cild, 4-cü fəsil, səh.5).*

# AZƏRBAYCAN (IV—VII əsrlər)




*Sasanilər dövründə öz dövlətçiliyini saxlaya bilmiş hökmdar Albaniyada ölkənin əli hakimi idi. O dünyəvi və dini hakimiyyətin məşvərətçi, qanunverici orqanı olan məclisə, məhkəməyə başçılıq edirdi; ölkənin bütün hərbi qüvvələrinin baş komandanı idi. Alban dövləti antik Albaniyanın ənənələrini davam etdirərək, müstəqil daxili, bəzən də xarici siyasət yürütməyə cəhd etsə də, Sasanilərdən vassal asılılıqda olmuşdur. 510-628-ci illərdə ölkə mərzbanlar-canişinlər tərəfindən idarə olunurdu. VII əsrin I yarısında Albaniyada Girdiman vilayətinin sahibləri olən Mihranilər nəsli üstünlük qazandı. Bu nəslin ən görkəmli nümayəndəsi Cavanşirin dövründə Albaniyə, 643-cü ildən başlanmış ərəb yürüşlərinə və Azərbaycanın cənubunun — Adurbadaqanın işğalına baxmayaraq, əsrin sonuna qədər özünün hərbi müstəqilliyini qoruyub saxladı.*

## AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİ DÖVRÜNDƏ (VII əsrin II yarısı —IX əsrin I yarısı)




*Xəzərlər, ərəblər və Bizansın davamlı hücumları nəticəsində Albaniya 705-ci ildə müstəqilliyini itirdi. Azərbaycan bütünlüklə Ərəb Xilafətindən asılı hala düşdü.*

*Lakin Xilafət daxilində gedən parçalanma prosesi tarixi Azərbaycan ərazisində yeni dövlət qurumlarının təşəkkülü üçün şərait yaratdı.*

*Bu dövrdə geniş ticarət əlaqələri mövcud olmuş, elm inkişaf etmiş, xəritələr çəkilməyə, barıt hazırlanmasına başlanmışdır. Yeni qalalar, məscidlər, saraylar inşa edilmiş, ərəb xəlifələri üçün məqbərələr (sərdabələr) tikilmişdir.*

# XÜRRƏMİLƏR HƏRƏKATI (VIII əsrin sonu — IX əsrin I yarısı)




| | |
|---|---|
| 827 | Xürrəmilərin ərəblərlə döyüş yerləri və illəri |
| | Babəkin son döyüş yeri |
| BƏZZ | Xürrəmilərin istinadgahı |
| | Xürrəmilər hərəkatının başlandığı ilkin ərazilər |
| | Xürrəmilər hərəkatının yayıldığı ərazilər |

*IX əsrin I yarısında Məhəmməd İbn Mərvanın başçılığı altında ərəb qoşunları Azərbaycana hücum etdilər. 90 ilə yaxın davam edən amansız vuruşmalar nəticəsində ərəblər Azərbaycanı çətinliklə tabe edə bildilər.*

*Ərəblərin hakimiyyəti dövründə Atropatena və Albaniya vahid dövlətin tərkibinə daxil oldu. Bu isə ölkənin şimalı və cənubu arasında gələcək iqtisadi və mədəni yaxınlaşma üçün zəmin yaratdı.*

Azərbaycan Respublikası Prezidentinin
PREZİDENT KİTABXANASI

# AZƏRBAYCAN (IX əsrin II yarısı — X əsr)




Naxçıvan. Əlincə qalası, VII-XII əsrlər

*Ərəb Xilafəti daxilində gedən parçalanma prosesi tarixi Azərbaycan ərazisində yeni dövlət qurumlarının yaranmasında mühüm rol oynadı. Azərbaycan yadelli işğalçıların əsarətindən azad oldu. Lakin ölkədaxili feodal parçalanması yadelli işğalçılara qarşı müqaviməti zəiflədirdi, iqtisadi inkişafa mənfi təsir göstərirdi.*

## AZƏRBAYCAN (X əsrin sonu — XI əsrin I yarısı)




Cəbrayıl rayonu. Xudafərin körpüsü, XI-XII əsrlər

*Daxili çəkişmələrdən zəifləmiş Azərbaycan dövlətləri səlcuq yürüşləri nəticəsində Səlcuq İmperiyasına daxil olurlar. Yalnız Şirvanşahlar dövləti öz müstəqilliyini qoruyub saxlaya bildi.*

*Səlcuq dövrü Azərbaycanın və bütün Cənubi Qafqazın tarixində mühüm dönüş dövrü oldu. Azərbaycan xalqının və Azərbaycan türk dilinin mövqeyi daha da gücləndi.*

## AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ (1136-1225-ci illər)




Vassal ərazilər
Vassal ərazilərin sərhədləri



Naxçıvan şəhəri. Möminə xatın türbəsi. 1186-1187-ci illər

*Səlcuq imperiyasının tənəzzülü dövründə hakimiyyət uğrunda davam edən çəkişmələr nəticəsində yeni dövlət qurumlarının-atabəyliklərin təşkili üçün zəmin yarandı. 1136-cı ildə Azərbaycan Eldənizlər dövləti meydana gəldi. Bu dövrdə təsərrüfatın inkişafı üçün əlverişli şərait mövcud idi; metal əridilir, sənətkarlıq inkişaf edir, yeni şəhərlər salınırdı.*

*Atabəylər dövlətinin idarə edilməsi məqsədilə əli idarə (divan-əl-alə) yaradıldı. Bu dövlətin nəzdində dövlət dəftərxanası, maliyyə idarəsi və ya xəzinədarlıq var idi. Eldənizlər dövründə Azərbaycan mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatdı.*

# AZƏRBAYCAN (XIII-XIV əsrlər)




Bakı şəhəri. Şirvanşahlar Sarayı kompleksi. XIII-XV əsrlər




*XIII əsrin 20-ci və 30-cu illərində baş verən monqol yürüşləri bütün Cənubi Qafqazda olduğu kimi Azərbaycanda da bir çox sülalələrin hakimiyyətinə son qoydu. 1258-ci ildə Azərbaycan Hülakülər dövlətinin tərkibinə daxil edildi. Azərbaycanda və ona qonşu ərazilərdə Hülakülər dövlətini bir müddət Çobani feodalları idarə edirdi. Onlar hakimiyyətdə olsalar da, dövlət rəmzi sayılan sikkə zərbi-müstəqil şəkildə deyil, Hülakü şahzadələrinin adından həyata keçirilirdi. Yerli feodalların daxili çəkişmələri Şirvanşah I İbrahimin vəhid Azərbaycan dövləti yaratmaq siyasətinə maneçilik törətdi.*

# NAXÇIVAN (XIII—XIV əsrlər)






Naxçıvan.
Qarabağlar, XII-XIVəsrlər

*XIII-XIV əsrlərdə Azərbaycan Hülakülər və Cəlairilər dövlətlərinin mərkəzi vilayəti olmaqla, inzibati-ərazi bölgüsü baxımından əsas 4 əyalətə-Azərbaycan, Arran, Şirvan və Muğan əyalətlərinə ayrılırdı. Azərbaycan əyalətinin (tarixi Atropatena ərazisi) özü də 9 tümənə bölünmüşdür. Naxçıvan Araz çayının hər iki sahilindəki ərazilərə malik olsa da, "tümən" statusu ilə Azərbaycan əyalətinə daxil idi və müasir dövrə nisbətən çox geniş əraziləri əhatə edirdi. Naxçıvan tüməni Makudan Qafan dağlarına kimi olan ərazini əhatə edirdi və Xoy, Mərənd, Mişkin tümənləri və Qarabağla hüdudlanırdı. Həmdullah Qəzvinin (XIV əsr) Makunu Naxçıvan tüməninə daxil olan 5 şəhərdən biri kimi tanıdır (Naxçıvan, Ordubad, Azad, Əncan və Maku) və onun qaya yarğanında yerləşən qala olduğunu bildirir. Reşidəddin Fəzlullah (1247-1318) isə Qafanın Naxçıvan tüməninə aid olduğunu yazırdı. Onun kənd təsərrüfatına həsr olunmuş "Asar və ahya" ("Təsir və dirçəliş") əsərində qeyd olunan "zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir", ərvağan çiçəyi "Naxçıvan vilayətində olan Qafan dağlarında çox bitir" kimi faktları Qafan ərazisinin inzibati-ərazi baxımından Naxçıvan tüməninə daxil olduğunu göstərir.*

## QARABAĞ (XIII—XIV əsrlər)




*"Qarabağ" adlı yerlər bir çox ölkələrdə, o cümlədən Azərbaycanda (Arran Qarabağı, Təbriz Qarabağı, Surxab Qarabağı və s.) mövcud olmuşdur. Arran Qarabağı son orta əsrlər Arranının (Kür və Araz çayları arası) mərkəzi hissəsinin adıdır. Həmin ərazinin "Arran Qarabağı" adlanmasına səbəb onun başqa Qarabağlardan, xüsusilə Xəzərin şərqindəki "Baqdis Qarabağından" fərqləndirmək olmuşdur.*

*XIII-XIV əsr mənbələrində "Dağlıq Qarabağ" termininə təsadüf olunmur və Qarabağın dağlıq və düzən əraziləri eyni inzibati-ərazi vahidi kimi fəaliyyət göstərmişdir. Qarabağ son orta əsrlər Arranının əsas qəlbi, mərkəzi hesab olunurdu. Qarabağın cənub hüdudları Araz çayına kimi uzanırdı. Göyçə gölünün şimalında yerləşən Zəyəm və Arranın şərq tərəfində olan Beyləqan Qarabağa aid idi. Qarabağ ərazisi Şirvanla Kür boyunca həmsərhəddir. Qarabağ ticarət yolu Kür-Araz qovşağından başlayaraq Tiflisə qədər uzanırdı. Həmin yolun Qarabağ ərazisinə düşən hissəsi üzərində və ona yaxın məsafələrdə Xar, Qarqar, Bəkrabad, Yunan, Ləmbəran, Bazarcıq, Bərdə, Cuzbuq, Dih-İsfahan, Xanagah-Şutur, Gəncə, Şəmkir, Tatarlı və s. şəhər və yaşayış məntəqələri vardır. Bütün bunlar Qarabağın, Arranın mərkəzi kimi, şimal-qərbdə Zəyəmçay, şimal-şərqdə Güştasfi (Kür ilə Arazın qovuşduğu yerdə), cənubda Araz çayı, qərbdə Həkəri çayı ilə hüdudlandığını göstərir.*

# AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİ (1410 - 1468-ci illər)




*Mənşəcə Oğuzların Yivə boyundan olan Qaraqoyunlular Yaxın və Orta Şərqin tarixində mühüm rol oynamışdır. Tarixi mənbələr VII əsrdən etibarən onların Azərbaycanda yaşaması haqqında məlumatlar verir. Monqol yürüşləri zamanı Şərqi Anadoluya çəkilən bu tayfalar XIV əsrin II yarısında Elxanilər dövlətinin süqutundan sonra Bayram Xocanın rəhbərliyi altında mərkəzi Ərciş və Van şəhərləri olan güclü tayfa birliyi yaratmışlar. XIV əsrin sonunda dövrün siyasi hadisələrinə qatılan Qaraqoyunlular Sürməli, Xoy və Naxçıvan bölgələrində möhkəmlənərək Qara Yusifin başçılığı altında bir neçə dəfəTəbrizi ələ keçirmişlər. Əmir Teymurun yürüşləri zamanı Cəlairi Sultan Əhmədlə birlikdə ciddi müqavimət göstərən Qara Yusif öncə Osmanlı sultanına, sonra isə Misir sultanına sığınmaq məcburiyyətində qalmışdır. 1405-ci ildə Əmir Teymurun ölümündən sonra Azərbaycanda onun varisləri arasında başlanan mübarizədən istifadə edən Qara Yusif 1406-cı ilin oktyabrında Teymuri Əbu Bəkri Naxçıvan yaxınlığında, 1408-ci ilin aprelində isə Təbriz yaxınlığında Sərdrud döyüşündə məğlub edərək, Teymurilərin Azərbaycandakı ağalığına son qoymuşdur. Qara Yusif 1410-cu ilin avqustunda Təbriz yaxınlığında Cəlairi Sultan Əhmədi məğlub edərək Cəlairilər dövlətinə son qoymuş və mərkəzi Təbriz olan Azərbaycan Qaraqoyunlu dövlətini yaratmışdı. Qaraqoyunlu dövlətinə Kürdən cənuba Azərbaycan torpaqları, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqı daxil olmuşdur. Cahanşahın dövründə (1436-1467) 1453-1458-ci illərdə Əcəm İraqına, Mazandaran və Xorasana yürüşlər nəticəsində dövlətin şərq sərhədləri Xorasana kimi genişləndirilmişdir. 1458-ci ildə Herat tutulsa da, Teymuri Əbu Səidlə bağlanan müqaviləyə görə, Qaraqoyunlular Heratı tərk etmişdilər.*

*Cahanşah 1467-ci ilin noyabrında Ağqoyunlular üzərinə yürüş zamanı Muş yaxınlığında Səncək adlı yerdə Uzun Həsənin hücumuna məruz qalmış və öldürülmüşdür. Uzun Həsən 1468-ci ildə Cahanşahın oğlu Həsən Əli üzərində qələbədən sonra Qaraqoyunlu dövlətinə son qoymuşdur.*

## AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİ (1468 - 1501-ci illər)




*Xalqımızın tarixində mühüm rol oynamış Ağqoyunlular Oğuzların Bayandur boyundandır. Ağqoyunlu tayfaları hələ VI-VII əsrlərdən Azərbaycanın Araz çayı ilə Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında yaşayırdılar. Monqol yürüşləri zamanı Şərqi Anadoluya çəkilən Ağqoyunlular XIV əsrin ortalarında Elxanilər dövlətinin süqutundan sonra Tur Əli bəyin rəhbərliyi altında güclü tayfa birliyində birləşmiş və dövrün siyasi hadisələrinə qatılmışlar. XIV əsrin sonunda tayfa birliyinin möhkəmlənməsində Qara Osmanın (1394-1435) mühüm xidməti olmuşdur. Bu zaman Diyarbəkr şəhəri bu tayfa birliyinin mərkəzi olmuşdur. Uzun Həsən 1453-cü ildə tayfa birliyinin rəhbəri olduqdan sonra onun mövqeyi daha da güclənmiş və Şərqi Anadoluda Qaraqoyunlulara məxsus şəhər və qalaların bir hissəsi onların ixtiyarına keçmişdir. Uzun Həsən Trabzon yunan dövlətilə sıx əlaqələr saxlamışdır. 1461-ci ildə Sultan II Mehmetin yürüşü zamanı anası Saray xatunu onunla danışıqlara göndərərək bu hücumun qarşısını almağa çalışmışdır. Yassıçəmən sülhünün bağlanmasına baxmayaraq Trabzonu xilas etmək mümkün olmamışdır.*

*Uzun Həsən 1467-ci ildə Cahanşah, növbəti ildə isə onun oğlu Həsən Əli üzərində qələbədən sonra mərkəzi Təbriz şəhəri olan Ağqoyunlu dövlətini yaratdı. Bu dövlətin ərazisinə qərbdə Fərat çayından, şərqdə Xorasana kimi, şimalda Kür çayından, cənubda İran körfəzinə kimi olan torpaqlar daxil edildi. Uzun Həsən 1477-ci ildə VI Baqrat üzərində qələbədən sonra Tiflis daxil olmaqla Şərqi Gürcüstanı da Ağqoyunlu dövlətinə birləşdirdi.*

*Lakin Trabzonun itirilməsi Ağqoyunluları Qara dənizə çıxışdan məhrum etmişdir. Qaraman uğrunda rəqabət Ağqoyunlu-Osmanlı münasibətlərini kəskinləşdirdi və müharibə vəziyyətinə gətirdi. Uzun Həsən 1472-73-cü illərdə Osmanlılara qarşı hərbi əməliyyatlara başladı. Malatya döyüşündə qələbə qazansa da Otluqbeli döyüşündə məğlub oldu. 1478-ci ilin 6 yanvarında Uzun Həsənin ölümündən sonra Ağqoyunlu dövləti zəiflədi və 1501-ci ildə Şərur döyüşündə İsmayıl Səfəvi Sultan Əlvəndi məğlub edərək Ağqoyunlu dövlətinə son qoydu.*

## AZƏRBAYCAN ( XV əsr)




ƏRDƏBİL — Səfəvilərin Ərdəbil hakimliyi

1405 — Şirvanşah İbrahimin Teymuri Ömər Mirzənin qovulmasına qarşı yürüşü

1406 — Şirvanşah İbrahimin Cənubi Azərbaycan torpaqlarının Şirvanşahlar dövlətinə birləşdirmək üçün Təbrizə yürüşü və məğlubiyyəti

1412 — Qara Yusifin Şirvanşah İbrahim və onun müttəfiqlərinə qarşı yürüşü

1434 — Qaraqoyunlu İsgəndərin Şirvana talançı yürüşü

1440-1441 — Cahanşahın Gürcüstana hərbi yürüşləri

1453-1458 — Cahanşahın daxili yürüşləri

1472 — Yusif Mirzənin Qaramana hərbi yürüşü



Mərəza qəsəbəsi.
Diri Baba türbəsi. 1402-ci il

*XV əsrin başlanğıcı Azərbaycanın yadelli əsarətindən azad edilməsi və qədim dövlətçiliyin bərpa edilməsi dövrüdür. Bu dövrdə Kür çayından şimalda Şirvanşahlar dövləti və Şəki hakimliyi mövcud idi. 1408-ci ildə Qara Yusif tərəfindən Azərbaycanda Teymuri ağalığına son qoyuldu və 1410-cu ildə Cəlairi Sultan Əhməd üzərində qələbədən sonra mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövləti yarandı. Bu dövlətə Kürdən cənubdakı Azərbaycan torpaqları, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqı daxil oldu. 1468-ci ildə onu Ağqoyunlu dövləti əvəz etdi. Bu dövlətin sərhədləri şərqdə Xorasana kimi uzanırdı. XV əsrdə Ərdəbil, Lənkəran və Qaracadağ bölgələrində Səfəvilə rin Ərdəbil hakimliyi mövcud olmuşdur.*

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (ŞAH İSMAYIL DÖVRÜ.1501-1524-cü illər)






Şah İsmayıl döyüşdə.
Divar şəkli. İsfahan, XVII əsr.

*İsmayılın rəhbərliyi altında qızılbaşlar 1500-cü ildə Şirvanşah Fərrux Yasarı Çobani döyüşündə, 1501-ci ildə isə Ağqoyunlu Sultan Əlvəndi Şərur döyüşündə məğlub etdilər. Təbrizə daxil olan İsmayıl şah elan olundu və Azərbaycan Səfəvi dövləti yarandı. Şah İsmayıl 1503-cü ilin iyununda Almaqulağı döyüşündə Sultan Muradın ordusunu məğlub etdi və Səfəvilər tərəfindən İranın Kirmana kimi əksər vilayətləri ələ keçirildi. 1506-1508-ci illərdə Ərəb İraqı, 1510-cu ildə isə Mərv döyüşündə Məhəmməd Şeybani üzərində qələbədən sonra Xorasan vilayəti Səfəvi dövlətinə birləşdirildi. Azərbaycan Səfəvi imperiyası şərqdə Şeybanilər, qərbdə isə Osmanlı imperiyası ilə həmsərhəd oldu. Dövlətin sərhədləri şimalda Dərbənd şəhərindən cənuba doğru - Fars körfəzinə, qərbdə Fərat çayından, şərqdə Amudərya çayına kimi uzanırdı.*

*1514-cü ildə Çaldıran döyüşündən sonra Şərqi Anadolu və Şimali İraq əraziləri Osmanlı dövlətinə verildi.*

- 1499-1504-ci illərdə Şah İsmayılın mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəsi
- 1507-1508-ci illərdə Şah İsmayılın Ərəb İraqına yürüşləri
- 1510-cu ildə Şah İsmayılın Xorasana yürüşü
- 1514-cü ildə Sultan Səlimin Azərbaycana yürüşü
- Səfəvilərin Çaldıran döyüşündən sonra itirilmiş əraziləri
- Portuqaliyanın işğal etdiyi ərazi

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ ( ŞAH TƏHMASİB DÖVRÜ, 1524-1576-cı illər)




Şah Təhmasib 1538-ci ildə Şirvanşahlar dövlətinin, 1551-ci ildə isə Şəki hakimliyinin müstəqilliyinə son qoyaraq həmin əraziləri Səfəvi imperiyasına birləşdirdi. Şah Təhmasib dövründə Azərbaycan Səfəvi dövləti özünün şərq vilayətlərini Şeybani dövlətinin və Moğol imperiyasının hücumlarından müdafiə etsə də, Osmanlı Sultanı Süleyman Qanuninin 1534-1554-cü illərdə Azərbaycana 4 hərbi yürüşü nəticəsində dövlətin qərb torpaqlarını itirdi.

1555-ci ildə Amasiyada imzalanan Səfəvi-Osmanlı sülhünə görə, Səfəvilər Şərqi Anadolunu, Ərəb İraqını və Qərbi Gürcüstan torpaqlarını Osmanlı dövlətinə güzəştə getdilər.

- 1538-1551-ci illərdə Səfəvi ordusunun yürüşləri
- 1534-1554-cü illərdə Osmanlı Sultanı Süleyman Qanuninin Azərbaycana yürüşləri
- 1526-1528-ci illərdə Şeybani ordusunun yürüşləri və məğlubiyyəti
- 1538-ci ildə Moğol ordusunun Qəndəhara yürüşü və məğlubiyyəti
- 1555-ci il Amasiya sülhünə görə Azərbaycan Səfəvi dövlətinin itirdiyi ərazilər
- Portuqaliyanın işğal etdiyi ərazi



Azərbaycan miniatürləri. XVI əsr. Saray bağçasında musiqi məclisi.

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (ŞAH MƏHƏMMƏD XUDABƏNDƏ DÖVRÜ. 1578-1587-ci illər)




*Şah Məhəmməd Xudabəndənin hakimiyyət illəri Osmanlı dövlətilə müharibənin yenidən başlanması dövrüdür. 1578-1590-cı illər müharibəsi Səfəvilər üçün uğursuz oldu.*

*1590-cı ildə bağlanmış İstanbul müqaviləsinə görə, Azərbaycanın Ərdəbil, Qaracadağ, Xalxal və Lənkəran bölgələrindən başqa digər əraziləri, o cümlədən Həmədan bölgəsi Osmanlı imperiyasının tərkibində qaldı.*

*1587-ci ildə yaranmış vəziyyətdən istifadə edən Şeybanilər Xorasanı ələ keçirdilər.*

- 1578-1588-ci illərdə Osmanlı ordusunun Azərbaycana yürüşləri
- 1578-ci ildə Səfəvi ordusunun Şirvana yürüşü
- 1578-1581-ci illərdə Krım xanının Azərbaycana yürüşləri
- 1588-1589-cu illərdə Şeybani ordusunun yürüşləri
- Portuqaliyanın işğal etdiyi ərazi
- 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsindən sonra Azərbaycan Səfəvi dövlətinin itirdiyi ərazilər
- Şeybanilərin işğal etdiyi ərazilər

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (I ŞAH ABBAS və SƏLƏFLƏRİ DÖVRÜ,1587-1736-cı illər)




Bərdə şəhəri. İmamzadə məscidi, XVII əsr

1599-1607-ci illərdə I Şah Abbasın yürüşləri

1605-1626-cı illərdə Osmanlı ordusunun yürüşləri

1622-1623-cü illərdə Səfəvi ordusunun İraqa yürüşləri

1629-cu ildə Ürgənc hakiminin Xorasana yürüşü

1631-ci ildə Bəlx hakiminin Xorasana yürüşü

1620-ci ildə Portuqaliyadan geri alınmış ərazi

1603-1612-ci illərdə Osmanlılardan geri alınmış ərazilər

1599-cu ildə Şeybanilərdən azad edilmiş ərazilər

*I Şah Abbas dövründə güclü nizami ordunun yaradılması Səfəvi dövlətinə itirilmiş ərazilərini geri qaytarmağa imkan yaratdı. 1599-cu ildə I Şah Abbas Şeybanilər üzərində qələbə qazanaraq Xorasanı yenidən Səfəvi imperiyasına birləşdirdi. 1603-1607-ci illər Səfəvi-Osmanlı müharibəsində qalib gələn I Şah Abbas itirilmiş Azərbaycan torpaqlarını geri qaytardı və Osmanlılarla növbəti müharibələrin gedişində imperiyanın sərhədlərini qoruyub saxladı.*

*1620-ci ildə vaxtı ilə Portuqaliyaya güzəştə gedilən Hörmüz geri qaytarıldı. 1622-1624-cü illərdə Osmanlı ordusu üzərində qələbədən sonra Ərəb İraqı da Səfəvi imperiyasına birləşdirildi. Səfəvi imperiyasının sərhədləri bərpa edildi. Lakin Şah Səfi dövründə osmanlılarla 1636-1639-cu illər müharibəsinin gedişində səfəvilər məğlub oldu və tərəflər arasında bağlanmış Qəsri-Şirin müqaviləsinə görə Ərəb İraqı Osmanlı imperiyasının tərkibində qaldı.*

## NADİR ŞAH ƏFŞARIN İMPERİYASI (1736-1747-ci illər)






Bakı şəhəri, Suraxanı qəsəbəsi.
"Ateşgah" məbəd kompleksi. XVIII əsr

Vassal ərazilər

Nadir şahın Əfqanıstana və Hindistana yürüşü

Nadir şahın Orta Asiyaya yürüşü

Osmanlı ordusunun hərəkət istiqamətləri

Nadir şahın Osmanlılara qarşı yürüşləri

*1722-ci ilin oktyabrında əfqanlar Səfəvi dövlətinin paytaxtı İsfahan şəhərini və İranın böyük hissəsini, Rusiya Azərbaycanın Xəzəryanı vilayətlərini və Gilanı, Osmanlı imperiyası isə Cənubi Qafqazın Səfəvilərə məxsus hissəsini tutduqdan sonra Səfəvi dövləti demək olarki süqut etmişdir. 1726-cı ildən etibarən istedadlı Azərbaycan sərkərdəsi Nadir şahın başçılığı ilə səfəvilərə məxsus bütün ərazilər geri qaytarıldı. Nadir şahın əcdadları vaxtilə sərhədləri Şeybanilərdən qorumaq məqsədilə Xorasana köçürülmüş Azərbaycan türk Əfşar tayfasının qırxlı qoluna mənsub idi.*

*Nadir 1736-cı ilin martında Muğan qurultayında özünü şah seçdirib, Səfəvi dövlətinə rəsmən son qoydu və Əfşarlar imperiyasını yaratdı. Nadir şah Böyük Moğol imperatorluğunu məğlub edərək, bir müddətə Dehlini də ələ keçirmişdir.*

*1747-ci il iyunun 19-dan 20-nə keçən gecə Nadir şahın saray daxili sui-qəsd nəticəsində qətlə yetirilməsindən sonra onun yaratdığı imperiya da süqut etdi.*

# AZƏRBAYCAN XANLIQLARI (XVIII əsrin II yarısı)




*1747-ci ildə Nadir şahın ölümündən sonra onun imperiyası dağılmış və Azərbaycanda 20-dək xırda irsi feodal monarxiyalar-xanlıqlar, həmçinin qonşu hakimlərdən asılı olan bir neçə sultanlıq meydana gəlmişdir.*

*XVIII əsrin 80-ci illərindən başlayaraq, ölkənin cənub hissəsində yerləşən xanlıqlar Azərbaycan sərkərdəsi Ağa Məhəmməd xan Qacarın yaratdığı yeni dövlətdən asılı hala salınmışdır.*

*1803-1828-ci illərdə isə Azərbaycanın şimal xanlıqları Rusiya tərəfindən zəbt edilmişdir.*

## QUBA XANLIĞI (XVIII əsrin II yarısı)




Bakı şəhəri, XVIII əsr

Vassal ərazilər

XVIII əsrin 70-80-ci illərində Fətəli xanın Qarabağa yürüşləri

1780-1797-ci illərdə Ağa Məhəmməd şah Qacarın yürüşləri

1784-cü ildə Qubalı Fətəli xanın Azərbaycanı birləşdirmək uğrunda Ərdəbilə yürüşü

1796-cı ildə V.A. Zubovun komandanlığı altında rus qoşunlarının yürüşü

*Quba xanlığının əsası hələ XVII əsrin 70-ci illərində Hüseyn xan tərəfindən qoyulmuşdur. Lakin o zaman müstəqil dövlət qurumu olmayıb, şah hakimiyyətindən asılı olan iri irsi feodal mülkü idi. Salyan da bu xanlığın tərkibinə daxil idi. 1747-ci ildə Nadir şahın ölümündən sonra Qubalı Hüseynəli özünü müstəqil hökmdar elan etdi. Salyanda hakimiyyəti Rudbar hakimi İbrahim ələ alıb özünü xan elan etdi. Ancaq 1756-cı ildə Hüseynəli xanın oğlu və vəliəhdi Fətəli bəy yenidən Salyanı özünə tabe etdi. 1758-ci ildə atasının ölümündən sonra taxta çıxan Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək siyasəti yürüdürdü. Ardıcıl surətdə Dərbənd və Şamaxı xanlıqları işğal olundu, Bakı və Cavad xanlıqları, həmçinin Tabasaran dinc yolla Quba xanının ali hakimiyyətini qəbul etdilər. Müxtəlif vaxtlarda Lənkəran və Şəki xanlıqları da Quba xanından asılı olmuşdur. Beləliklə bütün şimal-şərqi Azərbaycan müvəqqəti olsa da birləşdirildi. 1789-cu ildə Fətəli xan vəfat etdikdən sonra sələfləri bu dövlətin birliyini qoruyub saxlaya bilmədilər. Rusiya 1806-cı ildə Quba xanlığını işğal etmiş, 1810-cu ildə onu ləğv edib öz əyalətinə çevirmişdir.*

# İRƏVAN XANLIĞI (XVIII əsrin II yarısı)




1780-1797-ci illərdə Ağa Məhəmməd şah Qacarın Gürcüstana yürüşü



İrəvan, XVIII əsr

*1747-ci ildə Nadir şah qətlə yetirilib imperiyası dağıldıqdan sonra Çuxur Səəd bəylərbəyi Pir Mahmudxan hakimiyyəti əldən verməməyə cəhd göstərsə də İrəvanda xalq üsyanına başçılıq etmiş yerli feodal Mir Mehdi özünü xan elan edərək müstəqil İrəvan xanlığının əsasını qoymuşdur. Bəylərbəyliyin bir hissəsi bu xanlığın hüdudlarından kənarda qalaraq, Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi.*

*Xanlıq 15 mahala bölünürdü. Xanlıq əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri idi. Ermənilər əhalinin cüzi hissəsini təşkil edirdi. Ermənilərin dini mərkəzi Eçmiədzin (Uçmüəzzin) İrəvan xanlığının ərazisində yerləşirdi. Onun başçısı İrəvan xanı tərəfindən vəzifəsinə təsdiq olunurdu.*

*İrəvan xanlığı 1828-ci ildə Rusiya tərəfindən işğal edilərək ləğv edilmişdir.*

# QARABAĞ XANLIĞI (XVIII əsrin II yarısı)




1770-1780-ci illərdə Qubalı Fətəli xanın Qarabağa yürüşləri

1780-1797-ci illərdə Ağa Məhəmməd şah Qacarın Gürcüstana yürüşləri

1796-cı ildə V.A.Zubovun Komandanlığı altında rus qoşunlarının yürüşü

*Nadir şah Əfşarın imperiyasının 1747-ci ildə dağılmasından sonra Azərbaycanda yaranmış xanlıqların ən böyüyü və güclülərindən biri Qarabağ xanlığı olmuşdur. Xanlığın əsasını Otuziki tayfa birləşməsinin Cavanşir tayfasının Sarıcalı oymağından çıxmış Pənahəli xan İbrahim Xəlil ağa oğlu qoymuşdur.*

*1763-cü ildə onun oğlu İbrahim Xəlil xan taxta çıxmışdır. 1806-cı ildə o, ruslar tərəfindən qətlə yetirildikdən sonra hakimiyyətə oğlu Mehdiqulu xan gəlmişdir. 1805-ci il mayın 14 (26)-də Qarabağ xanının Rusiya himayəsini qəbul etməsi haqqında Kürəkçay müqaviləsi bağlanmışdır.*

*Xanlıq 1822-ci ildə ləğv edilərək Rusiyanın bir əyalətinə çevrilmişdir.*



Əsgəran qəsəbəsi. Qala, XVIII əsr

## AZƏRBAYCANIN ŞİMAL-QƏRB XANLIQ VƏ SULTANLIQLARI (XVIII əsrin II yarısı)




1780-1797-ci illərdə Ağa Məhəmməd şah Qacarın Gürcüstana yürüşləri

1796-cı ildə V.A.Zubovun komandanlığı altında rus qoşunlarının yürüşü



Şəki Xan sarayı, XVIII-XIX əsrlər

*Nadir şah Əfşar imperiyası dağıldıqdan sonra Azərbaycanın şimal-qərbində Şəki və Gəncə xanlıqları, İlisu, Şəmşəddil, Qazax və Borçalı sultanlıqları kimi kiçik feodal monarxiyaları formalaşır. Bu regionda eyni zamanda altı xırda feodal respublikasının-camaatının (Car-Balakən, Katex, Tala, Muxax və Canik) federasiyası (birliyi) mövcud idi.*

*Şəki xanlığı, Nadir şaha qarşı 1743-cü ildə azadlıq mübarizəsinə qalxmış yerli iri feodal Hacı Çələbi tərəfindən elan olunmuşdur. Şahın ölümündən sonra Şəki xanlığı Qutqaşın sultanlığını və Ərəşməlikliyini də özünə tabe etmişdir.*

*Gəncə xanlığının əsasını hələ Səfəvilər dövründə Qacar tayfasının nümayəndesi Şahverdi xan Ziyadoğlu qoymuşdur.*

## ŞİMALİ AZƏRBAYCANIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALININ BAŞLANMASI (1801-1813-cü illər)




1813-cü il Gülüstan müqaviləsinə əsasən Rusiya-İran sərhədi

1802-1810 Rus ordusunun yürüşləri

1806 Qacarlar ordusunun yürüşləri

*1801-1813-cü illər Azərbaycanın tarixində ən ağır dövrlərdən biridir. 1801-ci ildə Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının zəbt olunması ilə Azərbaycanın çar Rusiyası tərəfindən işğalına başlandı. Çox keçmədən Car-Balakən, Gəncə, Qarabağ, Şəki, Şirvan Rusiya imperiyasının təcavüzünə tab gətirməyib təslim oldu. Azərbaycanın 20-dən çox kiçik dövlətlərə parçalanması, güclü vahid dövlətin olmaması, eləcə də Rusiyanın müstəmləkəçilik siyasəti tarixin bu istiqamətdə inkişafını bir növ şərtləndirirdi. Rusiyanın hücumları davam etdirib Araz çayını keçməsi və cənuba doğru yürüşü şah hökumətini rüsvayçı Gülüstan müqaviləsini imzalamağa məcbur etdi. İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayından şimalda yerləşən bütün Azərbaycan torpaqları, habelə Lənkəran xanlığı Rusiyaya qatıldı. Azərbaycan Rusiya və İran arasında iki yerə bölündü. Xalqımız ən facieli tarixini yaşamağa başladı. Həmin dövrdə tarix xalq qəhrəmanı Cavad xanın igidliyinin, İrəvan qalasının qəhrəmancasına müdafiəsinin, Sisiyanov və Qulyakov kimi çar cəlladlarının cəzalarına çatdırılmalarının və xalqımızın işğala qarşı hər yerdə ciddi müqavimət göstərməsinin şahidi oldu.*

# ŞİMALİ AZƏRBAYCANIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALININ BAŞA ÇATDIRILMASI ( 1826-1828-ci illər)




Türkmənçay müqaviləsinə əsasən Rusiya-İran sərhədi

1826 — Qacar ordusunun və ayrı-ayrı xanların yürüşləri

1827 — Rus ordusunun yürüşləri

Rus ordularına qarşı xalq çıxışları

*Azərbaycanın tarixində çox qısa olan bu dövr öz qaynarlığı, hadisələrin sürətli inkişafı ilə yadda qalır. 1826-cı ildə Gəncədə, eləcə də Azərbaycanın digər bölgələrində baş verən üsyanlar, işğalçıların ölkədən qovulması, xalqın zülmlə barışmamasının bariz nümunəsidir. Lakin ölkənin bütün qüvvələrinin birləşməsinin mümkün olmaması, düşmənin gücünün düzgün qiymətləndirilməməsi, 1826-cı ilin payızında rusların əks hücumları ölkənin yenidən işğala məruz qalmasına səbəb oldu. 1827-ci ildə Naxçıvan və İrəvan xanlıqlarının işğalı, Tehrana doğru yürüşün başlanması 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin bağlanılmasına gətirib çıxardı. Qacarlar dövləti Cənubi Qafqazı ələ keçirmək ümidini itirdi. Rusiya isə Araz çayı sərhəd olmaqla yeni ərazilərin işğalını rəsmiləşdirdi. Xalqımızın uzun müddət üçün iki yerə bölünməsi və müxtəlif rejimlərin əsarətinə düşməsinin əsası qoyuldu. Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən ermənilərin kütləvi surətdə Şimali Azərbaycana köçürülməsinə başlandı.*

# ŞİMALİ AZƏRBAYCANDA RUSİYA İMPERİYASINA QARŞI XALQ AZADLIQ HƏRƏKATI




Rusiya imperiyasına qarşı xalq üsyanları

Rusiya imperiyasına qarşı silahlı çıxışlar

Qaçaq-kəndli hərəkatının yayıldığı bölgələr

*Hələ Şimali Azərbaycanın işğalının gedişində Azərbaycan xalqı Rusiya qəsbkarlarına güclü müqavimət göstərmişdir. 1803-1804-cü illərin qovuşuğunda xalq qəhrəmanı Cavad xan vətənin azadlığı uğrunda mübarizədə şəhid düşmüş, 1803-cü ildə Car-Balakən igidləri rus generalı Qulyakovu qoşunu ilə birlikdə darmadağın etmiş, 1806-cı ildə Qafqaz rus qoşunlarının baş komandanı Sisiyanov Bakıda öldürülmüş, onun qoşunları isə Sarı adaya qaçmalı olmuşdular. Şəkili Səlim xan isə1806-cı ildə rus qoşunlarını qovub xanlıqdan çıxarmışdı. 1819-cu ildə Şəmşəddili güclü həyəcan bürümüşdü. XIX əsrin 30-cu illərində bir-birinin ardınca Car-Balakən (1830-1832), Lənkəran (1831), Quba (1837-1838) və Şəkidə (1838) ruslara qarşı güclü xalq üsyanları olmuşdur. 1844-cü ildə İlisulu Daniyal rus generallarını ağır məğlubiyyətə uğratmış, 1863-cü ildə Hacı Murtuzun başçılığı ilə zaqatalalılar silaha sarılıb çar Rusiyasına qarşı vuruşmuşdular.*

*XIX əsrin sonu-XX əsrin əvvəllərində qaçaq-kəndli dəstələri çar mülkədarlarına və yerli bəylərə qarşı silahlı mübarizəyə qalxmış, onların mülkiyyəti kasıblara bölüşdürülmüşdür. Qaçaqlardan Nəbi, Kərəm, Zahid, Yusif, İsmayıl, Məmməd və başqaları kimi qorxmaz igidlər uzun onilliklər boyu çar hökumət orqanlarına dinclik verməmişdilər. Bütün bu xalq hərəkatları 1917-ci ildə Rusiya imperiyasının çökməsində az rol oynamamışdır.*

# ŞİMALİ AZƏRBAYCANIN İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ
## (XIX əsrin II yarısı- XX əsrin əvvəlləri)




Bakı şəhəri. XIX əsrin II yarısı

Bakı şəhəri. Birinci tramvay xətti, 1924-cü il

Tiflis və Dərbənd quberniyalarına qatılmış Azərbaycan əraziləri

1883-cü ildə Bakı-Tiflis, 1900-cü ildə Bakı-Vladiqafqaz dəmiryol xətləri işə düşmüşdür.

*Şimali Azərbaycanın inzibati-ərazi bölgüsündə ən ciddi dəyişiklik 1868-ci ilin fevral ayında mərkəzi Gəncə (Yelizavetpol) olmaqla Yelizavetpol quberniyasının yaradılması oldu. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Qazax və Yelizavetpol qəzaları, İrəvan quberniyasından, ləğv edilmiş Ordubad qəzasının bir hissəsi ona verildi. Ordubad qəzasının digər hissəsi Naxçıvan qəzasının tərkibində İrəvan quberniyası tərkibinə verildi. 1870-ci ildə İrəvan quberniyasının tərkibində əhalisinin çox böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Şərur-Dərələyəz qəzası təşkil edildi.*

*1868-ci ildə Bakı quberniyasının tərkibində iki yeni qəza - Cavad və Göyçay qəzaları, Yelizavetpol quberniyasının tərkibində isə Qazax və Zəngəzur qəzaları yaradıldı. 1874-cü ildə Nuxa qəzasının cənub hissəsi hesabına Ərəş qəzası yaradıldı. 1883-cü il iyulun 1-də Şimali Azərbaycanda daha iki yeni qəza-Cəbrayıl və Cavanşir qəzaları təşkil edildi.*

*Beləliklə, XIX əsrin sonu—XX əsrin əvvəllərində bölgüsü başa çatmış Şimali Azərbaycan torpaqları Rusiya imperiyasının tərkibində yeni inzibati-ərazi oldu. Qədim Azərbaycan şəhəri, çox mühüm hərbi-strateji məntəqə olan Dərbənd Azərbaycanın tərkibindən çıxarıldı. Bütün bu islahatlarda məqsəd Azərbaycanın qədim və ənənəvi ərazi birliyini, dövlətçilik ənənələrini məhv etmək idi.*

*Azərbaycan bir millət olaraq iqtisadi mənafe-birliyi əsasında, vahid dili, dini, ərazisi, mədəniyyəti, psixologiyası və özünü dərketməsi nəticəsində formalaşırdı.*

*Elm və mədəniyyətin ayrı-ayrı sahələrində də inkişaf gedirdi. Milli teatr yaradıldı, qəzetlər çap olunmağa başladı.*

# BORÇALI QƏZASI (XIX əsrin II yarısı- XX əsrin əvvəlləri)




*Azərbaycanın tarixi mahalı Borçalı müasir Gürcüstanın cənub-şərqində yerləşir. Hələ e.ə. burada erkən əkinçilərə məxsus yaşayış yeri olmuşdur. Qazıntı zamanı ərazidə çiy kərpicdən tikilmiş yaşayış evləri, təsərrüfat binaları, sümük (biz), daş və absidiandan hazırlanmış alətlər aşkar edilmişdir. Əhali maldarlıq, taxılçılıq, bostançılıq, bağçılıq, ipəkçiliklə məşğul olmuşdur. Şuləvər və Şomutəpə (Azərbaycan) abidələri Zaqafqaziyada daha erkən əkinçilik mədəniyyəti üçün səciyyəvidir. Böyük Şuləvər və Gümrüdəki mədrəsə və məscid mənəvi mədəniyyətin ilkin inkişaf nümunəsidir. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallarına çevrilsə də çox zaman müstəqilliyini saxlamışdır.*

*Rusiya çarı I Aleksandrın 12 sentyabr 1801-ci il tarixli fərmanına əsasən Qazax, Şəmşəddil ilə birlikdə işğal edilmiş Borçalı türk torpaqları XIX əsrin 40-cı illərinə qədər zorla Gürcüstana qatılmış 7 distansiyadan biri idi. 1832-ci ilin məlumatlarına görə, Borçalı distansiyasının 145 kəndinin 4 092 həyətində kişi cinsindən olan 13 762 nəfər yaşayırdı. Əhalinin böyük əksəriyyəti Azərbaycan türkləri idi.*

*Rus müstəmləkəçilərinin apardıqları məqsədyönlü köçürmə siyasəti nəticəsində Borçalının etnik tərkibində xristianların, ilk növbədə isə ermənilərin xeyrinə güclü dəyişikliklər edilib. Belə ki, 1886-cı ildə qəzanın 106 534 nəfər əhalisinin 76 %-i Azərbaycan türkü, 8 %-i ermənilər, 9 %-i gürcülər və 7 %-i başqa millətlərdən ibarət idi. Beləliklə, yürüdülən siyasət nəticəsində burada qəza əhalisinin etnik tərkibində Azərbaycan türklərinin xüsusi çəkisi iki dəfə azaldılmışdır.*

*1840-cı ildə Borçalı distansiyasının bir hissəsi yeni yaradılmış 11 qəzadan ibarət Gürcüstan-İmereçiya quberniyasının Aleksandropol (1937-ci ildən sonra Gümrü adlanır) qəzasına verilir, 1846-cı il 16 dekabr fərmanı əsasında təşkil edilmiş Tiflis quberniyasının tərkibində Tiflis qəzasından ayrılaraq, ayrıca inzibati - ərazi vahidi olan Borçalı qəzası (əhalisi azərbaycanlılardan ibarət Qarayazı və Qaraçöp rayonları buraya daxil deyildi) yaradılır. Borçalı qəzası Lori, Trialet və Borçalı pristavlıqlarına bölünürdü. İnzibati mərkəzi Böyük Şuləvər kəndində yerləşirdi. Borçalı qəzasının ümumi sahəsi (Strelbitskiyə görə 59 385 kv.verst, Hərbi topoqrafiya şöbəsinin məlumatına görə 54 172 kv.verst) 564 310 desyatin idi. 1926-cı ildə Borçalı qəzası ləğv edilir.*

# İRƏVAN QUBERNİYASI (XIX əsrin II yarısı- XX əsrin əvvəlləri)




*1872-ci ildən etibarən 7 qəzadən (Yeni Bəyazid, Naxçıvan, Aleksandropol, İrəvan, Üçmüəzzin, Sürməli və Şərur-Dərələyəz) ibarət olmuş İrəvan quberniyası Qacarlar dövləti və Osmanlı imperiyasından rusların köçürdükləri ermənilərin ən sıx məskunlaşdırıldıqları Azərbaycan torpaqları olmuşdur. 1897-ci ildə türk-müsəlmanları quberniya əhalisinin 58%-ni, ermənilər 37%-ni, digər xalqlar isə (ruslar, yunanlar, yəhudilər və başqaları) 5%-ni təşkil edirdilər.*

*Quberniya inkişaf etmiş kənd təsərrüfatına, 3469 sənaye müəssisəsinə, çoxsaylı sənətkarlıq emalatxanalarına, 2800 ticarət müəssisəsinə malik idi. İrəvan quberniyası həm qonşu quberniyalar, həm də Cənubi Azərbaycanla intensiv ticarət aparırdı. XIX əsrin əvvəllərində Azərbaycan elm və mədəniyyətin mühüm mərkəzlərindən olub, dünya mədəniyyətinə C.Məmmədquluzadə, B.Kəngərli və başqaları kimi dühalar vermiş İrəvan quberniyasında kişi və qadın gimnaziyaları, müəllimlər institutu (İrəvan şəhərində), 18 şəhər məktəbi, 81 kənd məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 7000 nəfər təhsil alırdı.*

- Azərbaycan türkləri
- Türkiyə və İrandan köçürülmüş ermənilər
- Digər xalqlar (ruslar, yunanlar, yəhudilər və başqaları)

## YELİZAVETPOL QUBERNİYASI (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri)




*Yelizavetpol quberniyası inzibati-ərazi vahidi kimi çar hökumətinin 09 dekabr 1867-ci il tarixli fərmanına əsasən yaradılmış və 1918-ci ilədək mövcud olmuşdur. Mərkəzi Yelizavetpol (Gəncə) şəhəri olan quberniyanın tərkibinə Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Cavanşir, Qaryagin (1905-ci ilədək Cəbrayıl), Zəngəzur və Şuşa qəzaları daxil idi. Sahəsi 38 982 km$^2$, əhalisi 1897-ci il siyahıyaalınmasına görə 879 min nəfərə yaxın, 1916-cı ildə isə 1 275 131 nəfər olmuşdur. XIX əsrin sonlarında Quberniya əhalisinin 63%-ni Azərbaycan türkləri, 30%-ni ermənilər təşkil edirdilər. Əhalinin əsas məşğuliyyəti taxılçılıq, ipəkçilik, pambıqçılıq, üzümçülük, heyvandarlıq və s. olmuşdur. Ərazi dəmir, mis, kobalt, gümüş filizləri ilə zəngin idi. Burada olan 67 sənaye müəssisəsindən ən iriləri hər birinin mindən artıq işçisi olan Gədəbəy və Qalakənd misəritmə zavodları idi. Quberniyada 13 xəstəxana, 14 tibb məntəqəsi, 17 aptek, müəllimlər seminariyası (Qazax), gimnaziyalar, sənət məktəbi və orta təhsil müəssisəsi fəaliyyət göstərirdi.*

*Quberniyanı Yelizavetpol hərbi qubernatoru (1872-ci ilin martından isə Yelizavetpol qubernatoru) idarə edirdi, inzibati polis aparatı və hökumət idarələri onun tabeliyində idi.*

# BAKI QUBERNİYASI
## (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri)






Bakı şəhəri. Mirbabayevin yaşayış evi, 1891-1896-cı illər



Bakı şəhəri Muxtarovun Saray binası, 1911-1912-ci illər

*Çar hökumətinin 1846 -cı il dekabr inzibati islahatına əsasən Cənubi Qafqaz 4 quberniyaya: Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Şimali Azərbaycan ərazisinin şərq torpaqları əsasən Şamaxı quberniyasına daxil edildi. 1859-cu ildə Şamaxı zəlzələ nəticəsində dağıldıqdan sonra quberniyanın mərkəzi Bakıya köçürüldü, quberniya isə Bakı quberniyası adlandırıldı. Bakı quberniyasının tərkibinə Şamaxı, Bakı və Lənkəran qəzaları, Xəzər dənizindəki Böyük Zirə (Nargin), Daş Zirə (Vulf), Pirallahı (Artyom), Çilov (Lilov) və s. adalar daxil idi. 1860-cı ilin mayında Quba qəzası da Bakı quberniyasına qatıldı. 1867-ci ildə isə Şuşa və Nuxa qəzaları Bakı quberniyasından ayrılıb Yelizavetpol quberniyasına verildi. Tezliklə Bakı quberniyasında Cavad və Göyçay kimi yeni qəzalar yaradıldı. Bakı quberniyası şimalda Dağıstan vilayəti, qərbdə Nuxa və Şuşa qəzaları, cənubda Astara və Araz çayları, şərqdə isə Xəzər dənizi ilə həmsərhəd idi. 1897-ci il siyahıyaalınmasına görə əhalisi 826 716 nəfər idi. Bunların 81.8%-i türk-müsəlman əhalisinin payına düşürdü.*

*Quberniyanın təsərrüfatında əsas yeri neft sənayesi tuturdu. XIX əsrin sonlarında Bakı sənaye rayonu dünya neft hasilatının yarısından çoxunu, Rusiya neft hasilatının isə 95%-ni verirdi. Bakı "dünyanın neft akademiyasına" çevrilmişdi. Bakı şəhəri istisna olunmaqla əhalisi taxılçılıq, bağçılıq, bostançılıq, pambıqçılıq, heyvandarlıq, balıqçılıq və s. ilə məşğul olurdular.*

1875-ci ildə ilk Azərbaycan qəzeti "Əkinçi" nəşr olunmuş, 1894-cü ildə ilk kütləvi kitabxana açılmışdır.

- Azərbaycan türkləri
- Türkiyə və İrandan köçürülmüş ermənilər
- Digər xalqlar (ruslar, yunanlar, yəhudilər və başqaları)

# AZƏRBAYCANLILARA QARŞI ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ SOYQIRIMLAR (1918-1920-ci illər)




Mübahisəli ərazilər

Kütləvi qırğına ən çox məruz qalan yerlər

Ən iri silahlı toqquşma yerləri

| Erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmişdir və dağıdılmışdır | 1918-1920 |
|---|---|
| Erməni ordusu tərəfindən qətlə yetirilən azərbaycanlılar | 700 000 nəfər |
| Deportasiya edilənlər | 750 000 nəfər |
| Dağıdılmış məktəblər | 263 |
| Tibb müəssisələri | 154 |
| Məscidlər və memarlıq abidələri | 126 |
| Qəbiristanlıq | 380 |
| Talan edilən və dağıdılan Azərbaycan kəndləri | ≈ 1 500 |

*1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Naziri Məhəmməd Həsən Hacınski hökumətə müraciət edərək erməni silahlı dəstələrinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi soyqırımı və onun əmlakının talan olunması ilə bağlı həyata keçirdiyi dəhşətli vəhşilikləri araşdıran Fövqəladə Təhqiqat Komissiyasının yaradılmasının vacib olduğunu bildirir (bax: ARDA, f.1061, siy.1, iş 105, v.1).*

*1918-ci il avqustun 31-də Cümhuriyyət hökumətinin qərarı ilə Fövqəladə Təhqiqat Komissiyası yaradıldı (bax: ARDA, f.1061, siy.1, iş 105, v.2).*

*Həm FTK-in, həm də o dövrün mətbuatının topladığı materiallara əsasən: 1918-1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən Bakıda 12 min nəfərdən çox, Şamaxıda 8 min nəfərdən çox, Qubada 16 min nəfər, Cənubi Azərbaycanda (Urmiya, Xoy, Salmas, Maku, Şərəfxana, Təbriz və başqa yerlərdə) 130 min nəfərdən çox, Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) 400 min nəfərdən çox azərbaycanlı qəddarlıqla qətlə yetirilmişdir.*

*Ermənilərin təcavüzü nəticəsində 263 məktəb, 154 tibb müəssisəsi, 126 məscid, 380 qəbiristanlıq, ümumilikdə isə təxminən 1500 azərbaycan kəndi talan edilərək, dağıdılmışdır.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər)






Bakı şəhəri. Şəhər dumasının binası, 1900-1906-cı illər

*1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyini elan etdi. Bununla bütün şərqdə və türk dünyasında ilk demokratik respublika yarandı. Azərbaycan Milli Şurası öz üzərinə icra və qanunvericilik səlahiyyətləri götürdü. M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi.*

*Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Sovetinin birinci sədri Fətəli xan Xoyski təyin edildi. Azərbaycan hökuməti səlahiyyətli dövlət strukturu yaratdı. Azərbaycan-türk dili dövlət dili elan edildi, dövlət bayrağı təsdiq edildi və yeni yaradılan azərbaycan ordusuna çağırışın elan edilməsi haqqında qərar qəbul olundu.*

*1918-ci il noyabrın 18-də Azərbaycan Milli Şurası özünü Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti elan etdi. Ə.M.Topçubaşov Parlamentin sədri seçildi.*

*Cümhuriyyətin ərazisi müəyyən edilərkən qarşıya böyük çətinliklər çıxdı. Ən ağır ərazi problemi Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhədlərin müəyyənləşdirilməsi idi. Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikası Azərbaycanın Naxçıvan, Şərur - Dərələyəz qəzalarına və Dağlıq Qarabağa iddialar irəli sürdü. Eyni zamanda Azərbaycana məxsus olan Zəngəzur ərazisini də özünə birləşdirməyə çalışırdı. Gürcüstan Respublikası Zaqatala dairəsinə iddialar qaldırırdı. Azərbaycan hökuməti öz qanuni torpağı olan Borçalı qəzasının Gürcüstan Respublikasının tərkibinə daxil olmasını qəbul etməkdən imtina edirdi. Azərbaycan həmçinin Cənubi Dağıstan (Tabasaran) ərazisinə də haqlı iddia irəli sürürdü.*

# AZƏRBAYCANA QARŞI XARİCİ-HƏRBİ MÜDAXİLƏ. AZƏRBAYCAN SSR-in YARADILMASI




1918-1919 — Qırmızı ordunun hücumu

1918 — İngilis qoşunlarının hücumu

1918-1919 — Türk qoşunlarının xilaskarlıq yürüşü

1920 — Rusiyanın Volqa-Xəzər donanması gəmilərinin hərəkəti

1920 — XI Qırmızı ordu hissələrinin hücumu (27-28 aprel 1920-ci il)

Türk qoşunları tərəfindən azad olunmuş şəhərlər

28.IV.1920 — Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması

Sovet işğalına qarşı müqavimət hərəkatı

Mübahisəli ərazilər

*Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən rus, ingilis, erməni-daşnak silahlı qüvvələrinin hücumuna məruz qaldı. Müdaxiləçilərin hər biri ayrı-ayrılıqda öz mənafeyi uğrunda müharibə aparırdı.*

*Qırmızı ordu və S.Şaumyanın başçılığı altında olan qoşunlar Azərbaycanın Rusiyaya birləşdirilməsi planının yerinə yetirilməsi məqsədilə Gəncəyə doğru hərəkət edirdilər. Gəncə bu zaman müstəqil Azərbaycan hökumətinin paytaxtı idi. Xilaskar Türk ordusu Qırmızı orduya qarşı vuruşur, bolşeviklərə zərbələr endirirdi.*

*İngilis ordusu Cənubi Azərbaycan ərazisindən Şimali Azərbaycana keçməyə və Bakını zəbt etməyə cəhd edirdi. Şəhər əvvəlcə türk ordusu tərəfindən azad olunmuş, sonra ingilislər tərəfindən işğal edilmişdi .*

*Nəticədə işğalçı rus ordusunun döyüş əməliyyatları və təzyiqi nəticəsində Azərbaycanın milli hökuməti istefa verdi.*

*1920-ci il aprelin 28-də Azərbaycanın şimalında sovet hakimiyyəti elan olundu. Xalqa divan tutuldu.*

*Şimali Azərbaycanda sovet hakimiyyəti 1991-ci ilədək davam etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi yenidən bərpa olundu.*

# AZƏRBAYCAN SSR (1920-1922-ci illər)




Ermənistan Respublikasına və Gürcüstan Respublikasına verilmiş Azərbaycan torpaqları

*1920-ci il aprelin 28-də Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinə məxsus olan 11 389 597 kv. km ərazi sahəsinin nəinki mübahisəli sayılan 16 598 kv.km-i, həm də mübahisəsiz olan 97 298 kv. km ərazisinin bir hissəsi qonşu respublikalara, xüsusilə Ermənistan Respublikasına verilmişdir.*

*1920-ci il mayında quberniya sistemi ləğv olunmuş, qəza bölgüləri isə saxlanılmışdır.*

*1920-ci il iyulun 28-da XI Qırmızı ordu hissələri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı—İnqilab Komitəsi yaradıldı. Naxçıvan SSR Şərur, Naxçıvan, Ordubad qəzalarını əhatə edirdi.*

*1920-ci il dekabrın 2-də RSFSR və Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin III maddəsində Rusiya Sovet hökuməti İrəvan quberniyasının Zəngəzur qəzasını Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Zəngəzur 1921-ci ilin iyununadək erməni-daşnak silahlı qüvvələrinin hakimiyyətində qalırdı. 1921-ci ilin iyununda Əlahiddə Qafqaz ordusu hissələrinin Zəngəzuru daşnak qüvvələrindən təmizlənməsi ilə Zəngəzurun qərb və yuxarı hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi başa çatdırıldı. 1921-ci il iyunun 20-də Ermənistan SSR XKS tərəfindən təsdiq olunmuş 8 qəzaya 9-cu Zəngəzur qəzası əlavə olundu.*

*Beləliklə Azərbaycan SSR-in göstərilən əraziləri onunla razılaşdırılmadan Sovet Rusiyası tərəfindən Ermənistan SSR-ə verildi.*

*Azərbaycan SSR XTK-nin 25 oktyabr tarixli arayışına görə keçmiş Zəngəzur qəzasından 405 000 desyatin (4 424,6 kv.km), Qazax qəzasından 379 984 desyatin (4 151,3 kv.km) ərazi Ermənistan SSR-ə verilmişdir.*

*1921-1922-ci illərdə Azərbaycan SSR-in inzibati bölgüsünə 15 qəza. Naxçıvan SSR-ə isə 3 qəza daxil idi.*

## AZƏRBAYCAN SSR (1923-1929-cu illər)




Bakı. Dəmiryol vağzalının binası, 1926-cı il



Ermənistan Respublikasına və Gürcüstan Respublikasına verilmiş Azərbaycan torpaqları

*Azərbaycan SSR MİK-nin 7 iyul 1923-cü il dekreti ilə mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. 4,161 kv.km sahəsi olan vilayətin "Əsasnamə" sinə görə Şuşa şəhəri və Xankəndindən 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 32 kənd, Qubadlı qəzasından Qaladərəsi kəndi DQMV-ə verildi.*

*Azərbaycan SSR tərkibində DQMV-nin yaradılması Azərbaycan xalqının iradəsi əleyhinə, onun ərazi bütövlüyünə qarşı qeyri-qanuni zorakılıq aktı idi. Sovet İttifaqında öz milli dövlət qurumu olan ermənilərə başqa bir dövlətin tərkibində əlavə inzibati-idarəçilik qurumunun yaradılması, alternativi olmayan məkirli bir tədbir idi.*

*DQMV-nin yaranması Azərbaycan SSR-in inzibati-ərazi bölgüsündə ciddi dəyişikliyə səbəb oldu. Şuşa, Qubadlı, Cavanşir qəzaları ləğv olundu. 1923-cü il avqustun 6-da Azərbaycan SSR MİK-nin qərarı ilə Qarabağın qalan hissəsində Ağdam, Cəbrayıl, Kürdüstan qəzaları yaradıldı. Eləcə də Ağdaş, Cavad, Qaryagin digər qəzalarla birləşdirildi, yeni Salyan qəzası yarandı.*

*Azərbaycan SSR MİK-nin 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR-ə çevrildi. 1924-cü ildə yaradılan 3 qəza (Şərur,Naxçıvan, Ordubad) 1925-ci ildə ləğv edildi. Əvvəllər yaradılmış 12 dairənin sayı 8-ə (Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunis, Nərimanov, Culfa, Parağa və Ordubad) endirildi.*

*Beləliklə, inzibati-ərazi bölgüsündə aparılan dəyişikliklər nəticəsində 85968 kv.km ərazisi olan Azərbaycan SSR-in tabeliyində bir Respublika (Naxçıvan SSR-ərazisi 5 988 kv.km), bir Muxtar Vilayət (DQMV - ərazisi 4,161 kv.km.) və 13 qəza (Ağdam, Bakı, Gəncə, Göyçay, Cəbrayıl, Zaqatala, Qazax, Quba, Laçın, Lənkəran, Nuxa, Salyan, Şamaxı) yarandı.*

*18 fevral 1929-cu ildə Moskva və Qars müqavilələrinin şərtləri kobud şəkildə pozularaq Zaqafqaziya MİK-nin qərarı ilə Naxçıvan MSSR-in 9 kəndindən ibarət 657 kv. km ərazisi (Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, Sultanbəy, İtqıran kəndləri, Ordubad qəzasının Karçevan kəndi, Kilid kənd torpaqlarının bir hissəsi) Ermənistan SSR-ə verildi.*

*Azərbaycan SSR-də yeni inzibati-ərazi bölgüsü haqqında məsələ VI Ümumazərbaycan Sovetlər qurultayında (1-9 aprel 1929-cu il) xüsusi bir məsələ kimi müzakirə edildi. Qurultay Naxçıvan MSSR və DQMV-nin sərhəd və hüquqlarını pozmadan, respublikanın dairə və kənd sovetləri inzibati-ərazi bölgüsünün həyata keçirilməsini qərara aldı.*

# AZƏRBAYCAN SSR (1930-1991-ci illər)




Bakı şəhəri, 1991-ci il

*1930-cu ildə Azərbaycan SSR-də10 dairə—Bakı, Gəncə, Zaqatala, Qarabağ(mərkəzi Ağdam),Quba, Kürdüstan (mərkəzi Laçın), Lənkəran, Muğan (mərkəzi Salyan), Nuxa, Şirvan (mərkəzi Göyçay) mövcud idi. SSRİ MİK XKS-nin qərarına müvafiq olaraq, 1930-cu il avqustun 8-də Azərbaycan SSR MİK və XKS "Dairələri ləğv etmək haqqında" qərar qəbul etdi. Respublikada (Naxçıvan MSSR və DQMV-dəki rayonlar da daxil olmaqla) 63 rayon təşkil edildi.*

*1931-ci il iyunun 26-da Azərbaycan SSR MİK Rəyasət Heyəti "Rayonların möhkəmləndirilməsi haqqında" qərar qəbul etdi. Yeni rayonlaşma nəticəsində bir sıra rayonlar birləşdirildi. Rayonların sayı 63-dən 52-yə endi.*

*Bakı istisna olmaqla, rayonlar 4 qrupa:pambıqçılıq, tarlaçılıq, maldarlıq, bağ-bostançılıq rayonlarına bölündü. Rayonlar 1937 və 1978-ci illərdə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyalarında təsbit olundu.*

*Beləliklə, nəticə etibarilə Azərbaycan SSR ittifaq miqyasında yüksək göstəricilər əldə edərək ön cərgələrdə gedirdi.*

*Neft sənayesi Azərbaycanın ən qədim sənaye sahəsidir. Ona görə də Azərbaycanı "Neft Akademiyası" adlandırırlar. Bununla əlaqədar neft-mədən avadanlığı istehsal edən Səttarxan zavodu, Keşlə maşınqayırma zavodu fəaliyyət göstərir.*

*Azərbaycanda ilk kimya zavodu 1879-cu ildə Bakıda tikilmişdir.*

*1952-ci ildən Sumqayıt boru-prokat zavodu fəaliyyət göstərir. Sumqayıt dünyada tanınan məşhur kimya sənaye şəhəridir. Buradakı zavodlar sənayenin inkişafında mühüm rol oynayır.*

*1954-cü ildə Daşkəsəndə filiz saflaşdırma zavodu işə başlamışdır.*

*1955-ci ildə 360 min kvt.gücündə Mingəçevir SES istifadəyə verilmişdir. Enerji sənayenin inkişafında mühüm rol oynayır. Mədəni inkişafda yeni mərhələyə qədəm qoyan Azərbaycan, elm və təhsil sahəsində böyük nailiyyətlərə malik olmuşdur.*

*1976-1986-cı illərdə ilk dəfə olaraq milli dildə Azərbaycanın ensiklopediyası nəşr olunmuşdur.*

*1990-cı il mayın 18-də Ağstafa, Qobustan, Xızı, Hacıqabul, avqustun 28-də Naxçıvan MSSR-də Sədərək rayonu yaradıldı.*

*Azərbaycan SSR Ali Sovetinin 28 avqust 1990-cı il fərmanı ilə Naxçıvan MSSR-də 6-cı Sədərək rayonu yaradılmışdır. 17 noyabr 1990-cı il Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyasının qərarı ilə "Sovet", "Sosialist" sözləri çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.*

*1991-ci il 18 oktyabrda müstəqillik əldə edən Azərbaycan Respublikası, öz müstəqilliyini yenidən bərpa etdiyini bəyan etdi.*

*1991-ci il 26 noyabrda Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilmişdir.*

# YUXARI QARABAĞ



Şuşa şəhəri.
Məscid, XVIII əsr




*Azərbaycan SSR MİK-nin 7 iyul 1923-cü il dekreti ilə mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Azərbaycan SSR tərkibində DQMV-nin yaradılması Azərbaycan xalqının iradəsi əleyhinə, onun ərazi bütövlüyünə qarşı qeyri-qanuni zorakı akt nümunəsi idi. Sovet İttifaqında öz milli dövlət qurumu olan ermənilərə başqa bir dövlətin tərkibində əlavə dövlət qurumu yaradılması, alternativi olmayan məkirli bir tədbir idi.*

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan, Ermənistanla ümumi sərhəddə malik olmayan və 26.11.1991-ci il tarixdən Azərbaycan Respublikasının Qanunu ilə ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayəti.

**KEÇMİŞ DQMV**

| | |
|---|---|
| Əhalisi (1989) | — 189 085 |
| Ermənilər | — 145 450 (76,9%) |
| Azərbaycanlılar | — 40 688 (21,5%) |
| Sair xalqların nümayəndələri | — 2 947 (1,6%) |
| Sərhədlərin uzunluğu | — 485 km |

**ŞUŞA RAYONU**

| | |
|---|---|
| Ərazisi | — 289 kv.km |
| Əhalisi | — 20 579 |
| Azərbaycanlılar | — 19 036 (92,5%) |
| Ermənilər | — 1 377 (6,2%) |
| İşğal olunmuşdur | — 1992-ci il, 8 may |

Ermənilərin Azərbaycanlılara qarşı soyqırım törətdikləri yaşayış məntəqələri

Azərbycanın Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuş ərazisinin sərhədləri (2007-ci il)

**ERMƏNİSTANIN İŞĞAL ETDİYİ KEÇMİŞ DQMV-yə DAXİL OLMAYAN AZƏRBAYCAN RAYONLARI**

| | İşğal olunmuşdur | Ərazisi kv.km | Sərhəd uzunluğu | Əhalisi |
|---|---|---|---|---|
| Laçın rayonu | — 1992-ci il, 18 may | 1 835 | 303 | 64 900 |
| Kəlbəcər rayonu | — 1993-cü il, 2 aprel | 3 054 | 228 | 67 500 |
| Ağdam rayonu | — 1993-cü il, 23 iyul | 1 154 | 198 | 160 000 |
| Cəbrayıl rayonu | — 1993-cü il, 26 avqust | 1 051 | 193 | 62 000 |
| Qubadlı rayonu | — 1993-cü il, 31 avqust | 802 | 171 | 35 000 |
| Füzuli rayonu | — 1993-cü il, 23 avqust | 1 386 | 180 | 142 000 |
| Zəngilan rayonu | — 1993-cü il, 28 oktyabr | 707 | 188 | 38 000 |

**DAĞLIQ QARABAĞ ƏHALİSİNİN SAY DİNAMİKASI**



# AZƏRBAYCANA QARŞI ERMƏNİ TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ
(1948-1953,1988-1993-cü illər)






Bakı şəhəri. Şəhidlər xiyabanı



1948-53, 1988-93-cü illərdə Ermənistandan 250 000 nəfər azərbaycanlı deportasiya olunmuşdur

1991-93-cü illərdə işğal olunmuş ərazilərdən 750 000 nəfər azərbaycanlı etnik təmizlənməyə məruz qalmış və deportasiya olunmuşdur

## AZƏRBAYCANIN ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL OLUNMUŞ ƏRAZİSİ

Cəbhə xəttinin uzunluğu — 246 km
İşğal edilmiş ərazi — ≈ 20 %

Ermanistan qoşunlarının hərbi təcavüzü nəticəsində doğma yurdlarından qaçqın düşmüş əhalinin düşərgələri

Köçkünlərin müvəqqəti məskunlaşdığı yerlər — Çadır düşərgələri

## TƏCAVÜZÜN QURBANLARI (1993-cü il)

Həlak olmuşdur - 20 000 nəfər Əlil olmuşdur - 50 000 nəfər

## ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜ ZAMANI HƏYATA KEÇİRİLMİŞ DAĞINTILAR (1993-cü il)

| | |
|---|---|
| Yaşayış məntəqələri | - 890 |
| Evlər | - 150 000 |
| İctimai binalar | - 7 000 |
| Məktəblər | - 693 |
| Uşaq bağçaları | - 855 |
| Tibb müəssisələri | - 695 |
| Kitabxanalar | - 927 |
| Alban kilsələri | - 44 |
| Məscidlər | - 9 |
| Tarixi saraylar, abidələr və muzeylər | - 473 |
| Muzey eksponatları | - 40 000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | - 6 000 |
| Avtomobil yolları | - 800 km |
| Körpülər | - 160 |
| Su kommunikasiyaları | - 2 300 km |
| Qaz kommunikasiyaları | - 2 000 km |
| Elektrik xətləri | - 15 000 km |
| Meşələr | - 280 000 ha |
| Kənd təsərrüfatı üçün yararlı torpaqlar | - 1 000 000 ha |
| İrriqasiya sistemləri | - 1 200 km |

*Bütün dağıntılar 60 milyarddan çox ABŞ dolları həcmində qiymətləndirilir*

## AZƏRBAYCANDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏR (1993-cü il)

| | |
|---|---|
| Ermənistandan qaçqınlar | – 250 000 |
| Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər | – 760 000 |
| Cəmi | – 1010 000 |

# AZƏRBAYCAN RESPUBLİKASI (1991-2007-ci illər)






İnzibati-ərazi bölgüsü 2007-ci il yanvar ayının 1-nə əsasən verilib





## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üçrəngli bayrağınla məsud yaşa!*
*Minlərlə can qurban oldu!*
*Sinən hərbə meydan oldu!*
*Hüququndan keçən əsgər,*
*Hərə bir qəhrəman oldu!*

*Sən olasan gülüstan*
*Sənə hər an can qurban!*
*Sənə min bir məhəbbət*
*Sinəmdə tutmuş məkan!*

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən! Şanlı Vətən!*
*Azərbaycan! Azərbaycan!*

Respublikanın quru sərhədlərinin uzunluğu təxminən 2 849 km-dir
Sahil xəttinin uzunluğu - 825 km
ƏRAZİSİ: 86,6 min kv. km
Xəzər dənizinin Azərbaycan sektoru 80 min kv. km
PAYTAXTI: BAKI — 1,9 mln.nəfər
ƏHALİSİ: 8,6 mln.nəfər
RƏSMİ DİLİ: Azərbaycan
DİNİ: İslam
DÖVLƏT QURULUŞU: Respublika
PUL VAHİDİ: Azərbaycan manatı

Ümumi daxili məhsulun adambaşına həcmi 1233,5 manat (AZN) təşkil edir.
2007-ci il üçün dövlət büdcəsi 5,7 mlrd.manatdır (AZN)

# AZƏRBAYCAN RESPUBLİKASI BU GÜN








**AZƏRBAYCANIN TARİXƏN FORMALAŞMIŞ İQTİSADİ RAYONLARI**

- I — ABŞERON
- II — QUBA-XAÇMAZ
- III — DAĞLIQ ŞİRVAN
- IV — ŞƏKİ-ZAQATALA
- V — ARAN
- VI — GƏNCƏ-QAZAX
- VII — YUXARI QARABAĞ. Ərazi Erməni işğalçıları tərəfindən işğal olunub. Məlumatlar1991-ci ilə əsasən verilmişdir
- VIII — KƏLBƏCƏR-LAÇIN. Ərazi Erməni işğalçıları tərəfindən işğal olunub
- IX — LƏNKƏRAN
- X — NAXÇIVAN

*Ulu öndər H.Ə. Əliyevin təşəbbüsü ilə həyata keçirilən XXI əsrin ən böyük enerji layihəsi Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin 28 may 2006-cı ildə respublika günündə təntənəli açılışı olmuşdur. Bu layihə bizim milli müstəqilliyimizin möhkəmlənməsində mühüm rol oynayır. Eyni zamanda TRASEKA proqramı çərçivəsində Böyük İpək Yolunun Şərq-Qərb nəqliyyat dəhlizinin bərpası, digər tərəfdən Şimal-Cənub nəqliyyat dəhlizi Azərbaycanı Avropadan Asiyaya və geriya yük daşımaları sahəsində mühüm bir ölkəyə çevirir.*

*Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin həyata keçirilməsi dünyaya inteqrasiyada mühüm amillərdəndir.*

*Hazırda 8 istilik və 6 SES fəaliyyət göstərir. Ümumi gücü 5715 meqavat, istifadə olunan gücü isə 4267 meqavat təşkil edir. Elektrik enerjisinin illik istehsalı orta hesabla 22 mlrd.kilovat/saat təşkil edir.Özəl sektorun inkişafı nəticəsində ölkəmizdə hündür mərtəbəli yaşayış evlərinin tıkılməsi və yolların abadlaşması böyük vüsət almışdır.*

*Ölkəmizin müdafiə sənayesinin inkişafında da ciddi irəliləyişlər mövcuddur.*

*2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev fondu ölkənin mədəni inkişafında saylarini uğurlə həyata keçirir. Bununla alaqədar 132 yeni orta məktəb inşə edilmişdir və 23 min şagird 2005/2006-cı tədris ilini müasir tələblərə cavab verən yeni məktəblərdə qarşılamışlar.*

*Hazırda ölkəmizdə 27 dövlət və 15 özəl ali məktəb, MEA və müxtəlif elmi mərkəzlər fəaliyyət göstərir. Bu il ali məktəblərə 25 min tələbə qəbul edilmişdir ki, bunlardan 101 nəfəri prezident təqaüdünə layiq görülüb.*

*Azərbaycan Muğam mədəniyyətinin dünyada təbliği ilə əlaqədar olaraq Bakı şəhərində Beynəlxalq Muğam mərkəzi yaradılmışdır. Həmçinin Bakıda Caz festivalı keçirilmişdir. Ölkəmizdəki mədəniyyət ocaqlarından Opera və Balet Teatrı, Milli Dram Teatrı, Musiqi Akademiyası, mədəniyyət evləri, radio, 6 televiziya kanalı, 110 qəzet və 55 jurnal mədəni inkişafda mühüm göstəricidir. Rabitə sahəsində "Azercell Telekom" BM Azərbaycanda mobil xidmətindən əhalinin 98 faizi istifadə edir. Azərbaycan müstəqilliyi dövründə inkişafının yeni bir mərhələsini yaşayır.*

# MEMARLIQ ABİDƏLƏRİ




Bakı şəhəri.
Qız qalası, VI-XII əsrlər

**BAKIDA "İÇƏRİ ŞƏHƏR" MEMARLIQ-ŞƏHƏRSALMA KOMPLEKSİ (VI-XIX əsrlər)**




1. Şamaxı darvazası, XII-XIX əsrlər
2. Şirvanşahlar Sarayı kompleksi, XIII-XV əsrlər
3. Hacı Bani məscidi, XVI əsr
4. Qız qalası, VI-XII əsrlər
5. Məhəmməd məscidi və minarət, XI əsr
6. Bəylər məscidi və minarət, XIX əsr
7. Cümə məscidi və minarət, XIV-XX əsrlər
8. Qasımbəy hamamı, XVII-XIX əsrlər

| | | |
|---|---|---|
| △ Tarix-memarlıq qoruqları | Məscidlər | Karvansaraylar (saraylar) |
| Türbələr | Qalalar | Körpülər |

*Azərbaycan dünyanın ən qədim və təkrarsız abidələr diyarıdır.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarı ilə 12 Tarix-Memarlıq qoruqları təsdiq edilmişdir:*
*1.Bakı "İçəri şəhər", 2.Qəla, 3. Qobustan, 4. Nardaran;*
*5.Gəncə; 6.Zaqatala; 7.Şəki "Yuxarı Baş"; 8.Şuşa;*
*9.İsmayıllı Basqal, 10.Lahıc;*
*11.Naxçıvan MR "Gülüstan", 12.Ordubad.*

*Xəritədə dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən bəzi nümunələr verilmişdir: Qobustan qayaüstü təsvirləri (mezolit - orta əsrlər), Şirvanşahlar Sarayı kompleksi (XIII-XV əsrlər), "İçəri şəhər" memarlıq-şəhərsalma kompleksi (VI-XIX əsrlər), Qız qalası (VI-XII əsrlər), Dördbucaqlı Mərdəkan qesri (XII-XIV əsrlər), Ramana qesri (XII-XIV əsrlər), "Atəşgah" məbəd kompleksi (XVIII əsr), Naxçıvan şəhərindəki Möminə xatın türbəsi (1186-1187-ci illər), Yusif Küsəyir oğlu türbəsi (1161-1162-ci illər), Culfa şəhərindəki Gülüstan türbəsi (XIII əsr), Şəki Xan sarayı (XVIII-XIX əsrlər), Bərdə şəhərindəki "Allah-Allah" türbəsi və Nüşabə qalası (1322-ci il), Dəvəçi şəhərinin Qalaaltı kəndindəki Çıraqqala (V-VI əsrlər) və s.*

*Tarixi abidələrimizi qorumaq hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.*